**D İ Q Q Ə T !**

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

*Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.*

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*
***QEYD:*** *Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*



# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 173 (6137) **2 oktyabr** 2020-ci il. **Qiyməti 40 qəpik**

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: “Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur”



*Azərbaycan və Belarus prezidentləri arasında telefon danışığı olub*

*Bax 2*

## Moldova mətbuatı: “İlham Əliyev erməni xalqına müraciət etdi: “Erməni əsgəri Azərbaycan torpaqlarında nə edir?”




*Moldovanın nüfuzlu “Timpul” informasiya portalında “İlham Əliyev erməni xalqına müraciət etdi: “Erməni əsgəri Azərbaycan torpaqlarında nə edir?” sərlövhəli məqalə dərc edilib...*

*Bax 2*

## “Beynəlxalq ictimaiyyət bu vəhşiliyi, Ermənistanın əsl üzünü görməlidir”



*Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın hərbi təxribatları ilə bağlı “Al Arabiya” kanalına müsahibə verib...*

*Bax 3*

## “Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir”

*Bax 5*



*Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdəki düşmən mövqelərinə gecə ərzində bölmələrimiz tərəfindən sarsıdıcı artilleriya zərbələri endirilib. AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat...*

## Milli maraqlara söykənən siyasət: Azərbaycan Ordusu tarixi zəfər yolunda!




*Sentyabrın 27-dən başlayaraq Ermənistan-Azərbaycan münaqişəsində hərbi toqquşmalar yenidən alovlanıb. Bu dəfə də Ermənistan tərəfi növbəti təxribata əl ataraq yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutdu. Azərbaycan vəziyyətə uyğun adekvat tədbirlər gördü və düşmən...*

*Bax 4*

## Erməniləri daşıyan yüzlərlə maşın Dağlıq Qarabağı tərk edir

*Sosial şəbəkələrdə erməniləri daşıyan avtomobil kolonunun işğal olunmuş Dağlıq Qarabağ regionunu tərk etməsini əks etdirən görüntülər yayımlanıb...*



*Bax 3*

## Adil Əliyev: “Azərbaycan Ordusu döyüş meydanında misli görünməmiş tarix yazır”



*Bax 6*

## Ordumuzun məhv etdiyi erməni hərbçilərin görüntüsü yayılıb



*Bax 5*

## “QARABAĞ”dan Avropaya zəfər yürüşü



*Bax 16*

# İlham Əliyev: “Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur”

*Azərbaycan və Belarus prezidentləri arasında telefon danışığı olub*



***Oktyabrın 1-də Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Belarus Prezidenti Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanıb.***

Dövlətimizin başçısı məlumat verərək bildirib ki, Ermənistanın sentyabrın 27-də səhər saatlarında başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli ağır artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində bu günə kimi hərbi qulluqçularımız, 17 mülki şəxs həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-dən çox ev dağıdılıb. Buna cavab olaraq Azərbaycan tərəfi əks-hücum əməliyyatlarını həyata keçirir.

Prezident İlham Əliyev qeyd edib ki, artıq Ermənistan ərazisindən də Azərbaycan mövqeləri atəşə tutulur ki, bu da qəti şəkildə yolverilməzdir. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistanın hərbi təcavüzünə son qoyulmalı və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Prezident İlham Əliyev onu da bildirib ki, Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur və Ermənistan hərbi təxribatlara rəvac verməklə yanaşı, danışıqlar prosesinə də böyük zərbə vurur.

# Prezidentin köməkçisindən xəbərdarlıq: “Adekvat tədbirlər görüləcək”

***Ermənistan silahlı qüvvələri ağır artilleriya və digər iriçaplı silahlardan istifadə etməklə Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqda davam edir. SİA-nın məlumatına görə, bunu Prezidentin köməkçisi Hikmət Hacıyev bildirib.***




H.Hacıyevin sözlərinə görə, Ermənistan silahlı qüvvələrinin qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini artilleriyadan atəşə tutması nəticəsində ikisi uşaq olmaqla, 17 nəfər mülki şəxs həlak olmuş, 51 nəfər yaralanıb. Dövlət və özəl mülkiyyətə zərər dəyib: “Ermənistanın bu əməlləri ilə sivil dəyərlərdən kənar olan ölkə olduğunu və növbəti dəfə mülki insanlara və azyaşlı uşaqlara qarşı xain hücumlar törədən ölkə olduğunu göstərir. Hərbi əməliyyatlar şəraitində mülki insanların hədəfə alınması və ya qəsdən öldürülməsi hərbi cinayətdir. Ermənistan dövləti və Ermənistanın siyasi-rəhbərliyi buna görə məsuliyyət daşıyır.

Ölkəmizə qarşı növbəti təcavüz aktı kimi bu gün Ermənistanın Goris rayonu istiqamətindən Azərbaycan ərazisi raket atəşinə məruz qalıb. Bu artıq Ermənistan ərazisindən Azərbaycana qarşı həyata keçirilən ikinci hücum aktıdır. Birinci hücum Ermənistanın Vardenis rayonu ərazisindən həyata keçirilib. Raket zərbəsi nəticəsində məcburi köçkünlər üçün yeni salınmış Cocuq Mərcanlı kəndində 20-yə yaxın evə zərər dəyib. Ermənistan tərəfinə xəbərdarlıq edirik ki, Ermənistan ərazisindən Azərbaycana qarşı hücumlar dayandırılmadığı halda, atəşi həyata keçirən legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görüləcək”.

# “Le Monde”-nin iki jurnalistinin yaralanmasına XİN-dən münasibət

***Ermənistan KİV-i işğal olunmuş Dağlıq Qarabağ bölgəsində Fransanın “Le Monde” qəzetinin iki jurnalistinin yaralanması ilə bağlı məlumat yayıb.***

SİA xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi məsələyə münasibət bildirib. Qeyd olunub ki, Ermənistan xarici jurnalistlərin həyatını təhlükə altına ataraq və beynəlxalq humanitar hüququ kobudcasına pozaraq jurnalistlərin hərbi əməliyyatların getdiyi əraziyə səfərini təşkil edir:

“Xatırladırıq ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi 27 sentyabr 2020-ci il tarixində rəsmi şəkildə bəyan etdi ki, Azərbaycan ordusu mülki əhalini və obyektləri hədəfə almır və işğalçı Ermənistandan fərqli olaraq hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququn müddəalarının tələblərinə riayət edir.



Xarici jurnalistlərin məqsədyönlü şəkildə təhlükəli əraziyə aparılması Ermənistan hökumətinin jurnalistlərin təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar öhdəliklərinə məhəl qoymadığını və xarici jurnalistlərdən özünün qanunsuz təbliğat məqsədləri üçün istifadə etdiyini açıq şəkildə göstərir. Tərəfimizdən xarici jurnalistlərə müraciət edərək Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrinə səfər ilə əlaqədar, ilk növbədə Azərbaycan tərəfinin razılığının əldə olunmasını ciddi tövsiyə edirik”.

# Moldova mətbuatı: “İlham Əliyev erməni xalqına müraciət etdi: “Erməni əsgəri Azərbaycan torpaqlarında nə edir?”

Moldovanın nüfuzlu “Timpul” informasiya portalında “İlham Əliyev erməni xalqına müraciət etdi: “Erməni əsgəri Azərbaycan torpaqlarında nə edir?” sərlövhəli məqalə dərc edilib.




AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidentinin sözlərindən sitatlar gətirilir: “Mən erməni xalqına müraciət edirəm və söyləmək istəyirəm ki, onlar rəhbərliklərinin çirkli əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Erməni əsgəri Azərbaycan torpaqlarında nə edir? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik! Qarabağ - bizim doğma, əzəli, tarixi torpağımızdır”.

# “Qarabağın işğalına qarşı kor, kar və lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür”

Türkiyə Böyük Millət Məclisinin toplantısında iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı Azərbaycanla bağlı məsələyə toxunub. SİA-nın məlumatına görə, Ərdoğan qeyd edib ki, Qafqaz torpağının hər qarışı yeni bir qarşıdurma potensialına sahib bir böhran bölgəsi olaraq qalmağa davam edir və Dağlıq Qarabağı işğal edən ermənilərin Azərbaycana qarşı hücumu ilə başlayan qarşıdurmalar, əslində, bunun ən bariz nümunəsidir. SİTAT: “Azərbaycanlı qardaşlarımızın işğal altındakı torpaqları azad etmək və vətənlərini qorumaq üçün apardıqları mübarizədə yanlarında olduğumuzu buradan bir daha bildirmək istəyirəm. Ermənilərin qədim Azərbaycan torpağı olan Qarabağın işğalına qarşı kor, kar və lal qalanların bu gün sərgilədikləri münasibət ikiüzlülükdür. İşğalçılara səssiz qalıb vətənlərini müdafiə edənlərin və onların yanında yer alanları ittiham edənlərin sözlərinin bizim üçün heç bir əhəmiyyəti yoxdur. Türkiyə olaraq “BİR MİLLƏT İKİ DÖVLƏT” kimi gördüyümüz azərbaycanlı qardaşlarımıza hər cür dəstəyi verməyə davam edəcəyik. Qarabağın işğalı zamanı mərhum Abdurrahim Karakoçun aşağıdakı sətirlərində ifadə etdiyi hissi bu gün demək olar ki canlı yaşayırıq: “Böyle geldi, böyle gitmez bu oyun. Zalimleri iflah etmez bu oyun. Umdukları gibi bitmez bu oyun. Mazlumların ekmeği, tuzu bizdedir. Sizdeki yaranin özü bizdedir”.



Bölgədə davamlı sülhə aparan yolun ermənilərin işğal etdikləri hər qarış Azərbaycan torpaqlarından geri çəkilməli olduğunu bildirən Türkiyə prezidenti, “Bu quldur dövləti dəstəkləyənlərin insanlığın vicdanı qarşısında cavab verəcəkləri barədə xəbərdar edirəm. Rəbbim azərbaycanlı qardaşlarımızın köməyi olsun. Bu mübarizədə şəhid olanlara Allahdan rəhmət, azərbaycanlı qardaşlarıma başsağlığı verirəm”, - deyə bildirib.

***Aysel Məmmədova***

# “Beynəlxalq ictimaiyyət bu vəhşiliyi, Ermənistanın əsl üzünü görməlidir”

## *Prezidentin köməkçisi Hikmət Hacıyev Ermənistanın hərbi təxribatları ilə bağlı “Al Arabiya” telekanalına müsahibə verib*




***Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın hərbi təxribatları ilə bağlı “Al Arabiya” kanalına müsahibə verib.***

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Yaxın Şərq ölkələrindəki muzdlu və hərbçiləri Ermənistan-Azərbaycan münaqişəsi zonasına cəlb etməsi, terror təşkilatlarının Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi, Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları və Azərbaycan dövlətinin özünün suveren ərazisini müdafiə etməsi barədə danışıb.

Hikmət Hacıyev Azərbaycanın dəfələrlə Ermənistan tərəfinin Yaxın Şərq ölkələrindəki muzdlu və hərbçiləri Ermənistan-Azərbaycan münaqişəsi zonasına cəlb etməyə çalışması ilə bağlı narahatlığını ifadə etdiyini bildirib. O, Ermənistanın uzun illərdir belə bir siyasət yürütdüyünü və bəzi Yaxın Şərq ölkələrindən terrorçuları Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə gətirdiyini və onlardan Azərbaycana qarşı istifadə etdiyini bildirib.

Prezidentin köməkçisi ötən əsrin 90-cı illərində də, Ermənistan-Azərbaycan münaqişəsinin aktiv mərhələsində bir sıra terror təşkilatlarının Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi və onların Azərbaycana qarşı döyüşməsi ilə bağlı faktların mövcud olduğu barədə məlumat verib. Ermənistanın kəşfiyyat xidmətlərinin Azərbaycan torpaqlarında 30-dan çox terror aktı törətdiyini qeyd edən Hikmət Hacıyev bununla bağlı Azərbaycanın narahatlığını ifadə edib və beynəlxalq ictimaiyyətin buna lazımi qaydada reaksiya göstərmədiyini vurğulayıb. O, Azərbaycanın heç bir muzdluya ehtiyacı olmadığını, əksinə, Azərbaycanın peşəkar silahlı qüvvələrə sahib olduğunu, ölkədə kifayət qədər şəxsi heyətin və ehtiyat qüvvələrinin olduğunu bildirib. “Bu səbəbdən, bizim başqa bir ölkənin hər hansı şəxsi heyətinə və ya muzdlu döyüşçülərinə ehtiyacımız yoxdur,” - deyə Hikmət Hacıyev qeyd edib.

Hikmət Hacıyev Azərbaycan dövlətinin özünün suveren ərazisini müdafiə etdiyini deyib. O, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq hüquqa riayət etməklə vətəndaşlarımızın təhlükəsizliyini müdafiə etdiyini və ölkəmizin ərazilərinin Ermənistan işğalından azad edilməsi məqsədilə özünün suveren ərazisində fəaliyyət göstərdiyini bildirib.

Prezidentin köməkçisi hərbi qarşıdurmanın davam etdiyini və sentyabrın 27-si səhər saatlarından Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan mülki vətəndaşlarına qarşı atəş açdığını və Azərbaycan silahlı qüvvələrinin öz mülki əhalisinin təhlükəsizliyini qorumaq və Ermənistanı sülhə vadar etmək üçün əks-hücum tədbirləri həyata keçirdiyini bildirib. Otuz ildən çoxdur ki, biz danışıqlar prosesi aparırıq, lakin Ermənistan status-kvonu qoruyub saxlamaq üçün əlindən gələni edir. Onlar, həmçinin Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyətlər həyata keçirirlər. Ermənilər Azərbaycanın işğal edilmiş ərazilərində məscidləri, İslam mədəni irsini dağıdırlar. Dünyanın heç bir ölkəsində məscidlərin dağıdılması və məscidlərdə donuzların saxlanılması kimi hallar baş verməyib. Mülki azərbaycanlıları öldürən və işğal edilmiş ərazilərdə məscidləri və İslam mədəni irsini dağıdan Ermənistan İslam dünyasına və ərəb xalqına özünü necə dost kimi göstərə bilər? Onlar bu gün də Azərbaycan mülki əhalisini öldürməyə davam edirlər. Güclü artilleriya hücumları nəticəsində mülki vətəndaşlarımız həlak olub və ağır yaralanıb. Beynəlxalq ictimaiyyət bu vəhşiliyi, Ermənistanın əsl üzünü görməlidir. Biz İslam ümmətinə, xüsusilə Türkiyəyə, Səudiyyə Ərəbistanına və Pakistana minnətdarıq. Ermənistanın Azərbaycana təcavüzünə görə bu ölkələrin Ermənistan ilə diplomatik əlaqələri yoxdur. Biz, həmçinin İslam Əməkdaşlıq Təşkilatına (İƏT) minnətdarıq. İƏT Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüzü pisləyən qətnamələr qəbul edib.

Prezidentin köməkçisi vurğulayıb ki, yalnız Ermənistan öz qoşunlarını Azərbaycan ərazisindən çıxardıqdan sonra biz sülhdən danışa bilərik. Ermənistanın müdafiə naziri yeni ərazilər üçün yeni müharibələr konsepsiyasını elan edib. Ermənistan nə zaman təxribatları son qoyacaq? Ermənistan beynəlxalq ictimaiyyəti aldatmağa və çaşdırmağa son qoymalıdır.

# Sahibə Qafarova Parlamentlərarası İttifaqın Prezidenti ilə danışıb



Oktyabrın 1-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Parlamentlərarası İttifaqın Prezidenti Qabriela Kuevas Barron arasında telefon danışığı olub. Milli Məclisdən SİA-ya bildirilib ki, telefon söhbətində Milli Məclisin sədri Parlamentlərarası İttifaqın Prezidentinə sentyabrın 27-dən etibarən Ermənistan tərəfindən cəbhə xəttində törədilən hərbi təxribatlar barədə məlumat verib. Milli Məclisin Sədri Ermənistanın son 30 ildir davam edən işğal siyasətinin regionda sülhə və sabitliyə təhlükə olduğunu vurğulayıb.

Sahibə Qafarova qeyd edib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı növbəti təxribat törətməklə aşkar şəkildə beynəlxalq birliyin çağırışlarına məhəl qoymadığını nümayiş etdirir. İşğalçı ölkə mülki vətəndaşları da hədəfə alaraq beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur. Sahibə Qafarova Parlamentlərarası İttifaqın Prezidenti Qabriela Kuevas Barronla telefon danışığında beynəlxalq ictimaiyyəti Ermənistanın işğalçı siyasətini sərt şəkildə qınamağa çağırıb. Qeyd edək ki, Parlamentlərarası İttifaq dünyanın 179 ölkəsinin parlamentini özündə birləşdirən ən böyük beynəlxalq parlament təşkilatıdır.

# Mövlud Çavuşoğlu: “Sadəcə masada danışanda kar qulaqlara xitab etmiş olursunuz”



“Sadəcə masada danışanda kar qulaqlara xitab etmiş olursunuz. Dolayısı ilə masada və meydanda irəliləmək daha effektiv olur”. SİA-nın məlumatına görə, bu sözləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Azərbaycanın işğal olunmuş əraziləri Dağlıq Qarabağ və ətraf rayonlarında keçirdiyi hərbi əməliyyatlar barədə çıxışında bildirib.

Qarabağda problemin 30 ildir diplomatiya ilə həllinə qovuşmadığını xatırladan nazir qeyd edib ki, Ermənistan təxribatçı hücumları ilə beynəlxalq sistemi və hüquq normalarını heçə saydığını açıq-aşkatr göstərir: “Bunun bir cavabı olmalıdır. Problemin masada həllini istədik, amma olmadı. Azərbaycan öz torpaqlarını işğaldan azad etmək istəyir. Mübarizəni öz torpaqlarına aparır. Azərbaycan meydanda bunu həll etmək istəyirsə, biz hər imkanımızla onun yanında olacağıq. Azərbaycanın istəyi olarsa, lazımi tədbirləri görəcəyik”.

M.Çavuşoğlu qeyd edib ki, Ermənistan Yaxın Şərqdən gətirdiyi erməniləri qanunsuz formada işğal etdiyi torpaqlara yerləşdirir: “Bu əməliyyatlar Azərbaycanın üsyanıdır. 30 ildir 20 faiz torpaqlar işğal olunub və 1 milyondan çox insan yurdundan didərgin salınıb. Azərbaycan əxlaqi və hüquqi baxımdan da haqlıdır.

*Aysel Məmmədova*

# Erməniləri daşıyan yüzlərlə maşın Dağlıq Qarabağı tərk edir



Sosial şəbəkələrdə erməniləri daşıyan avtomobil kolonunun işğal olunmuş Dağlıq Qarabağ regionunu tərk etməsini əks etdirən görüntülər yayımlanıb. SİA-nın məlumatına görə, yüzlərlə minik maşınından ibarət kolon Ermənistan istiqamətinə hərəkət edir. Kolonun uzunluğu bir neçə kilometrədək çatır. Videogörüntü “Twitter” sosial şəbəkəsində yayılıb.

# Düşmənin daha bir neçə hərbi texnikası məhv edilib

Azərbaycan Ordusunun bölmələri düşmənin bir neçə hava hücumundan müdafiə vasitələri və yaylım atəşli reaktiv sistemlərini məhv edib. Bu barədə SİA-ya Müdafiə Nazirliyindən məlumat verilib.




# Prezidentlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanat yayıblar



ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin rəhbərləri, Rusiya Prezidenti Vladimir Putin, ABŞ Prezidenti Donald Tramp və Fransa Prezidenti Emmanuel Makron Dağlıq Qarabağ münaqişə zonasında eskalasiyanı qəti şəkildə pisləyir. SİA-nın məlumatına görə, bu barədə prezidentlərin birgə bəyanatında deyilir.

Bəyanatda münaqişə nəticəsində həlak olanlarla əlaqədar başsağlığı verilib: “Biz münaqişə tərəflərini döyüş əməliyyatlarını dərhal dayandırmağa çağırırıq. Biz, həmçinin Ermənistan və Azərbaycan rəhbərlərini ATƏT-in Minsk qrupu həmsədrlərinin dəstəyi ilə tənzimləmə üzrə ilkin şərtlər olmadan danışıqların bərpa olunması məqsədilə üzərlərinə öhdəlik götürməyə çağırırıq”.








# Milli maraqlara söykənən siyasət: Azərbaycan Ordusu tarixi zəfər yolunda!

***Sentyabrın 27-dən başlayaraq Ermənistan-Azərbaycan münaqişəsində hərbi toqquşmalar yenidən alovlanıb. Bu dəfə də Ermənistan tərəfi növbəti təxribata əl ataraq yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutdu. Azərbaycan vəziyyətə uyğun adekvat tədbirlər gördü və düşmən mövqelərini susdurmaq üçün əks-hücum əməliyyatına başladı. Qısa müddət ərzində düşmən mövqeləri darmadağın edildi, Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndləri, həmçinin bəzi yüksəkliklər işğaldan azad olundu. Düşməni yerinə oturdan Ordumuz torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində həyata keçirdiyi əməliyyatları uğurla davam etdirir. Ali Baş Komandanın qətiyyətli iradəsindən, xalqımızın möhtəşəm dəstəyindən ilhamlanan Ordumuz cəbhənin bütün istiqamətlərində düşmənə sarsıdıcı zərbələr vurur.***

## Xalqın maraqlarına söykənən praqmatik siyasət

Hər bir ölkənin milli maraqlarının təmin olunması onun həm daxili, həm də xarici siyasətinin başlıca prioriteti olmalıdır. Həmçinin milli maraqlar bu iki istiqamət üzrə aparılan siyasətdə birləşdirici amil kimi çıxış etməlidir.

Azərbaycanın müstəqilliyinin, xalqımızın milli maraqlarının təminatçısı olan Prezident İlham Əliyev hər zaman bəyan edir ki, Azərbaycanın xarici siyasəti məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, xarici siyasət də həmin istiqamətdə qurulur. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələdə də dövlətimizin başçısının mövqeyi, iradəsi hər kəsə bəllidir. Azərbaycan dəfələrlə bəyan edib ki, münaqişə birmənalı olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmalı, düşmən işğal etdiyi bütün torpaqlardan çıxarılmalıdır. Bu mövqe tam şəkildə xalqın maraqlarını ifadə edir. "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!". Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətində səsləndirilən bu fikirlər bir daha yuxarıda qeyd etdiklərimizin təsdiqidir.

Azərbaycan uzun illərdir münaqişənin danışıqlar masası arxasında aparılması istiqamətində səylərini davam etdirir və səmərəli, məntiqi nəticəsi olacaq danışıqlar prosesinin tərəfdarı olduğunu ən yüksək səviyyədə bəyan edib, danışıqlar prosesinə sadiqliyini nümayiş etdirib.

Lakin Ermənistan tərəfi beynəlxalq münasibətlər sistemini yaradan və onu tənzimləyən vasitə olan beynəlxalq hüquqa məhəl qoymur və açıq-aşkar şəkildə işğalçılıq siyasətini davam etdirir. Qarşı tərəf nəzərə almalıdır ki, beynəlxalq hüquq beynəlxalq münasibətlərdə ədaləti təmin etməlidir. Haqqədalət isə Azərbaycanın tərəfindədir.

Heç bir gücə, heç bir məntiqə əsaslanmayan bəyanatlar verən, cəbhə xəttində təxribatlar törədən, Azərbaycanın yaşayış məntəqələrini atəşə tutan, danışıqlar prosesini pozan Ermənistan və onun rəhbərliyi anlamalı idi ki, bir gün mütləq Azərbaycan xalqının səbir kasası dolacaq və haqq-ədalət bərpa olunacaq. "Qarabağ Ermənistandır və nöqtə" deyərək yeni torpaqlar işğal etməyə hazırlaşdıqlarını açıqlayan Paşinyan və onun hakimiyyəti bu gün döyüş meydanından qaçaraq beynəlxalq ictimaiyyətdən yadım dilənir. Lakin artıq dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar da Paşinyanın, onun hakimiyyətinin yalanlarından bezib. Xəyalpərəst Paşinyan Şuşada yallı gedəndə, separatçı rejimin qondarma "prezidentinin" andiçmə mərasimində iştirak edəndə, "Qarabağ Ermənistandır" deyəndə onu bu günlərin də gözlədiyini bilməli idi. Bu səbəbdəndir ki, primitiv düşüncəli Paşinyanın nə irəli sürdüyü təşəbbüslər, nə də verdiyi bəyanatlar beynəlxalq ictimaiyyət tərəfindən heç bir dəstək almayacaq.

Tam əminik ki, hakimiyyətinə demokratik don geyindirməyə çalışan Paşinyanın bir milyondan çox azərbaycanlı məcburi köçkünün hüquqlarını görməzdən gələrək yürütdüyü siyasət iflasa məhkumdur və son təxribatlar onun süqutunu daha da tezləşdirəcək.

## Xalq-Prezident birliyi tarixi zəfərin əsas təminatçısıdır

Deyə bilərik ki, illərdir xalq-Prezident birliyi təməli üzərində möhkəmlənən, milli maraqlara söykənən siyasi kurs bu gün məntiqi nəticəsini verməkdədir.

Son hadisələr göstərir ki, xalqımız taleyüklü məsələlərdə birlik nümayiş etdirməyə, müstəqilliyimiz, suverenliyimiz uğrunda mübarizə aparmağa qadirdir. Ordumuz qısa müddət ərzində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərini, mühüm yüksəklikləri işğaldan azad etdi. Bu gün də tor-



paqlarımızın işğalçılardan azad edilməsi uğrunda döyüşlər davam edir. Uzun illər ərzində işğal etdiyi ərazilərimizdə mövqelərini möhkəmləndirən düşmənlə döyüşlərdə Ordumuzun göstərdiyi rəşadət, torpaqlarımızın azad edilməsi istiqamətində həyata keçirilən döyüşlər, qazanılan uğurlar hər bir azərbaycanlını ruhlandırır və daha böyük uğurlara həvəsləndirir.

Hələ Aprel döyüşləri və Tovuz hadisələri zamanı xalqımızın nümayiş etdirdiyi birlik bir daha hər kəsdə əminlik yaradıb ki, məcburi köçkünlərimiz öz əzəli torpaqlarına mütləq geri qayıdacaqlar. Son erməni təxribatlarından sonra Böyük qayıdışın reallaşması üçün ciddi zəmin yarandı. Prezident İlham Əliyevin xalqa müraciəti, hərbi vəziyyətin və qismən səfərbərliyin elan edilməsindən sonra insanların böyük əhval-ruhiyyə ilə döyüş meydanına yollanması, Ali Baş Komandana ünvanlanan çoxsaylı müraciətlər bir daha göstərir ki, Azərbaycan xalqının vətənpərvərlik hissi ən yüksək səviyyədədir.

Böyük iqtisadi imkanlara, möhkəm beynəlxalq mövqeyə, güclü orduya malik Azərbaycan tarixi ədaləti bərpa etmək əzmindədir. Düşmən isə hər zaman olduğu kimi, yanlış informasiyalar yayır, əhalisini aldatmağa, itkilərini gizlətməyə cəhd edir. Əlbəttə ki, yalanın ömrü uzun olmur, gec-tez bütün həqiqət bütün dünyaya, eləcə də erməni əhalisinə məlum olacaq.

## Ermənistanın dinc əhaliyə xain hücumları, ermənilərin faşist xislətinin növbəti təzahürü

Ağır artilleriyadan dinc sakinlərə atəş açmaq, dağıntılar törətmək, infrastruktura ziyan vurmaq... Bütün bunlar ermənilərin faşist xislətinin mahiyyətini təşkil edir. Məhz sentyabrın 27-də səhər saatlarından başlayaraq cəbhəboyu yaşayış məntəqələrimizin ağır artilleriyadan atəşə tutulması ilə müşahidə olunan bu xain hücum da düşmənin əsl üzünü bir daha göstərdi.

Sonrakı günlərdə də ermənilər iyrənc əməllərindən əl çəkmədilər. Naftalanda, Tərtərdə, Ağdamda, Daşkəsəndə və digər cəbhəyanı bölgələrdə yerləşən yaşayış məntəqələrinə edilən hücumlar nəticəsində ümumilikdə 14 dinc sakin qətlə yetirilib, 46 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Onların arasında bir ailənin beş üzvü, uşaqların, yaşlılar da var.

Bundan əlavə, mülki obyektlərin atəşə tutulması nəticəsində 116 yaşayış evi, 26 mülki obyekt yararsız vəziyyətə düşüb, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

Lakin bütün bunlar xalqımızı, xüsusən cəbhə bölgəsi ərazilərdə məskunlaşan əhalimizi qətiyyən narahat etmir. Çünki onların Azərbaycan Prezidentinə, Ordumuza inamı sonsuzdur. Ali Baş Komandanın tapşırıqlarını şərəflə yerinə yetirən Silahlı Qüvvələrimiz də tarixi zəfər yolunda inamla irəliləyir. Düşməni işğal altında olan torpaqlarımızdan təmizləmək əmrini icra edən Ordumuz xalqımızı yeni-yeni qələbələrlə sevindirir. Qələbə bizim olacaq.

***Əsəd Məmmədov***
***AZƏRTAC-ın redaksiya müdiri***

# "Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir"



Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdəki düşmən mövqelərinə gecə ərzində bölmələrimiz tərəfindən sarsıdıcı artilleriya zərbələri endirilib. AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 1-də keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistanın ərazisindən cəbhəboyu Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini, Füzuli rayonunun Horadiz şəhərini, Goranboy, Tərtər və Ağdam rayonlarını yenidən artilleriya atəşinə tutub.

Əməliyyatın beşinci gününün sonunadək düşmənin canlı qüvvədə, hərbi və döyüş texnikası baxımından xeyli sayda itkisi var. Düşmən bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi xüsusilə qeyd edib ki, Ermənistan mətbuatında guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterin vurulması və İran ərazisinə düşməsi barədə yayılan məlumatlar yanlışdır və əsassızdır. Hərbi Hava Qüvvələrimizə məxsus bütün aviasiya vasitələri tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

Məlumat verilib ki, ötən müddət ərzində düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatanları, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi sıradan çıxarılıb.

"Dünən məlumat verildiyi kimi, Ermənistan ordusunun alay komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin dəqiq artilleriya atəşi nəticəsində məhv edilib. Alayın köməyinə gələn düşmənin əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib. Əsgəri şərəf, şücaət və şöhrət rəmzi olan döyüş bayrağını döyüş meydanında atıb qaçan düşmən bir daha acizliyini nümayiş etdirib. Döyüş bayrağını qoruya bilməyən ordunun iki yolu var. Ya ərazimizi tərk etməli, ya da yerində məhv olacaq. Qələbə bizimlədir!", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.



## Ordumuzun məhv etdiyi erməni hərbçilərin görüntüsü yayılıb

Azərbaycan ordusu tərəfindən məhv edilmiş erməni əsgərlərinin cəsədləri ilə bağlı yeni video yayılıb. SİA xəbər verir ki, sosial şəbəkələrdə yayılan videoda döyüş meydanında məhv edilən çoxsaylı erməni əsgərlərinin cənazəsi görünür. Bu görüntüləri sosial şəbəkələrin erməni seqmentində yayılıb.

## Ermənilər qorxu içində: Döyüşməkdən imtina edirlər!



Məlum olub ki, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşir. SİA-nın məlumatına görə, Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhə hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər.

# Sevinc Fətəliyeva: "Azərbaycan yalnız döyüş meydanında yox..."



"Ermənistanın növbəti hərbi təxribatına Azərbaycan Ordusu əks-həmlə ilə layiqli cavab verməkdədir. İndi işğalçı Ermənistan böyük təşviş içindədir. Azərbaycan bu gün yalnız döyüş meydanında yox, diplomatik cəbhədə və informasiya müharibəsində də düşmən üzərində böyük üstünlük qazanıb. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramına verdiyi müsahibə də bu faktı təsdiqləyir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, ümumiyyətlə, Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində, BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda, BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışlarında, o cümlədən "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramına verdiyi müsahibəsində Ermənistanın işğalçı siyasətini, baş nazir Nikol Paşinyanın münaqişənin nizamlanmasını daha da alovlandıran müharibə çağırışlarını kəskin tənqid etdi. Dövlətimizin başçısı bu ədalətsizliyə göz yuman beynəlxalq təşkilatları da kəskin etdi. "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramına verdiyi müsahibəsində isə Ermənistanın müharibəyə başladığını, əsas hədəfin dinc əhali olduğunu, beynəlxalq humanizm prinsiplərini və beynəlxalq hüquq normalarını kobud şəkildə pozduğunu faktlarla ortaya qoydu.

Millət vəkilinin sözlərinə görə, dövlətimizin başçısının "Rossiya-1" telekanalına verdiyi müsahibə beynəlxalq aləmdə böyük rezonans doğurdu. Artıq dünya ictimaiyyəti də əsl həqiqətdən xəbərdardır və sərhədboyu ərazilərdə təxribatların Ermənistan ordusu tərəfindən törədildiyinə, müharibənin, ilk olaraq, Ermənistan tərəfindən başlanılmasına əminliklərini ifadə edirlər. Deputat qeyd edib ki, dövlətimizin başçısı müsahibəsinin əvvəlində müharibənin Ermənistan tərəfindən başlanıldığını bildirdi. Cəbhədəki son vəziyyət barədə məlumat verən cənab Prezident ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərimizi şiddətli artilleriya atəşinə tutduqlarını bildirdi. Qeyd etdi ki, biz təcavüzkara adekvat cavab verməyə və öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

"Ermənistanın baş nazirinin, guya, cəbhə bölgəsində türk əsgərlərinin və Türkiyəyə məxsus hərbi texnikanın olması, onların Ermənistan ordusuna qarşı vuruşduqları yalan dövlətimizin başçısı tərəfindən ifşa olundu. Ölkəmizin başçısı bu məsələ ilə əlaqədar aparıcının sualını cavablandırarkən dedi ki, Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyknyusdur. İzləyicilər Nikol Paşinyanın siyasi riyakar, böhtançı, yalançı olduğuna bir daha əminlik yarandı. Ümumiyyətlə, Paşinyanın ölkəyə rəhbərliyi dövründə bütün beynəlxalq tədbirlərdə yalan danışdığı, siyasi riyakarlığı artıq dünya ictimaiyyətinə də bəllidir. Budəfəki proqramda da onun suallara dili dolaşa-dolaşa cavab verməsi, sözləri düzgün tələffüz edə bilməməsi, suallar qarşısında aciz qalması yalançı və riyakar olmasından irəli gəlirdi. Bir sözlə, Paşinyan Azərbaycan Prezidentinin qarşısında yenə də aciz duruma düşdü"-deyə, S.Fətəliyeva vurğulayıb.

## İğdır şəhəri ayaqdadır, Azərbaycana dəstək!



Türkiyənin İğdır şəhərində Ermənistanın son hərbi təxribatına etiraz və Azərbaycan dövlətinə dəstək aksiyası keçirilib. Bu barədə SİA-ya Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib.

İğdır-Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin İğdır Azərbaycan Evi Dərnəyi ilə birgə təşkil etdiyi tədbir ermənilər tərəfindən qətlə yetirilən Şəhid Türklər Abidəsi və Muzeyi önündə gerçəkləşdirilib. "Azərbaycan yalnız deyil" şüarı ilə baş tutan tədbirdə vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər. Tədbirdə İğdır-Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri Ziya Zakir Acar, İğdır Azərbaycan Evi Dərnəyinin sədri Sərdar Ünsal çıxış ediblər.

Ermənistanın terrorçu dövlət olduğunu xatırladan natiqlər bildiriblər ki, Türkiyə dövləti və xalqı Azərbaycanın yanındadır, İğdırın vətəndaş cəmiyyəti də Azərbaycanın yalnız olmadığı ismarıcını vermək üçün bir araya gəlib: "Ermənistan qanunlara məhəl qoymayaraq, mülki əhaliyə hücum edir və tez-tez atəşkəs rejimini pozur. ATƏT-in Minsk qrupu problemi həll edə bilmir. Qarabağ Azərbaycan torpağıdır və belə də qalacaq. Azərbaycanın yanındayıq və yanında olmağa da davam edəcəyik. Azərbaycan erməni təxribatlarına lazımlı cavab verir. Təcavüzkar Ermənistanı qınayırıq". Tədbir iştirakçıları bəyanatı dəstəkləyiblər və Azərbaycanı yalnız buraxmayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür ediblər.

## Malayziya parlamenti Ermənistanın hərbi təxribatlarını kəskin şəkildə pisləyən bəyanat yayıb

***Malayziya parlamentinin Nümayəndələr Palatasında Malayziya-Azərbaycan Parlamentlərarası dostluq qrupu tərəfindən Ermənistanın ölkəmizə qarşı davam edən hərbi təxribatlarını kəskin şəkildə pisləyən bəyanat yayılıb.***

Sənəd dostluq qrupunun sədri Datuk Rosman Bin Datuk Haji İsli tərəfindən oktyabrın 1-də imzalanaraq Azərbaycanın Malayziyadakı səfirliyinə göndərilib.



PARLIMEN MALAYSIA

CHAIR OF THE MALAYSIA-REPUBLIC OF AZERBAIJAN PARLIAMENTARIAN FRIENDSHIP GROUP

As the members of Malaysia – The Republic of Azerbaijan Friendship Group in the Parliament of Malaysia, we condemn attacks by the armed forces of Armenia launched on September 27, 2020 against Azerbaijan. We immediately urge the Government of Armenia to stop every single attempt violating basic imperatives of international law, as well as the fundamental demands of international humanitarian documents. Avoiding use of force and considering power of diplomatic efforts, the Government of Armenia must promptly follow constructive negotiations to achieve peaceful settlement of the conflict with Azerbaijan.

All members of our friendship group deeply regret that Armenia's above-mentioned offensive is not only against peace and prosperity in the region of South Caucasus, but also undermines Malaysia's very recent initiative dated June 23, 2020 by achieving support of 171 United Nations Member States, to launch a "Statement of Support to the UN Secretary-General's Appeal for a Global Ceasefire amid the COVID-19 Pandemic" targeting international cooperation and mutual trust.

Furthermore, we extend our condolences to the families of those killed, wishing a speedy recovery to the injured.

**HON DATUK ROZMAN BIN DATUK HAJ ISLI**
Kuala Lumpur
1st October 2020

Malaysian Houses of Parliament, Taman Duta, 50480 Federal Territory of Kuala Lumpur

Bəyanatın mətnində deyilir: "Biz - Malayziya Parlamentində Malayziya-Azərbaycan dostluq qrupunun üzvləri sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı başlamış hücumları pisləyirik. Biz təcili olaraq Ermənistan hökumətinə çağırış edirik ki, beynəlxalq hüququn əsas qanunlarını, eləcə də beynəlxalq humanitar sənədlərdən irəli gələn fundamental tələbləri pozan hər bir cəhdini dayandırsın".

Sənəddə qeyd edilir ki, Ermənistan hökuməti gücdən istifadəyə etmədən, eləcə də diplomatik səyləri artıraraq Azərbaycanla münaqişənin sülh yolu ilə nizamlanmasına nail olmaq üçün ən qısa zamanda konstruktiv danışıqlara başlamalıdır.

Bəyanatda, həmçinin deyilir: "Bizim dostluq qrupumuzun bütün üzvləri dərin təəssüf hissi keçirirlər ki, Ermənistanın yuxarıda qeyd olunan hücumları təkcə Cənubi Qafqazda sülh və rifaha qarşı deyil, eyni zamanda, bu il iyulun 23-də Malayziyanın BMT-yə üzv dövlətlərdən 171-nin səsini toplayaraq, beynəlxalq əməkdaşlığı və qarşılıqlı etimadı nəzərdə tutan "COVID-19 Pandemiyası dövründə Qlobal Atəşkəs üçün BMT Baş katibinin Müraciətinə Dəstək Bəyanatı" təşəbbüsünü də sarsıdıb".

Bəyanatın sonunda münaqişə nəticəsində həyatını itirən şəxslərin ailələrinə başsağlığı verilib, yaralananlara şəfa arzulanıb. Xatırladaq ki, sentyabrın 29-da Malayziya Xarici İşlər Nazirliyi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatla çıxış edib.

# Adil Əliyev: “Azərbaycan Ordusu döyüş meydanında misli görünməmiş tarix yazır”

***Sentyabrın 29-da Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Dağlıq Qarabağda vəziyyətlə bağlı qapalı iclası keçirilirdi. İclasın nəticələrini hamılıqla maraqla gözləyirdik. Təbii ki, Təhlükəsizlik Şurasının bu iclası keçirməsinin yeganə səbəbi Azərbaycan Ordusunun inamlı qələbəsi və məğlub duruma düşən Ermənistan tərəfinin beynəlxalq təşkilatlara yalvarışı idi.***

SİA xəbər verir ki, bu barədə Milli Məclis sədrinin müavini Adil Əliyev fikirlər səsləndirib. O bildirib ki, xalqımız bir daha əmin olsun ki, qeyd-şərtsiz üstünlük bizimdir: “Əgər Ermənistan tərəfi öz ordusuna güvənirsə, nə üçün davamlı olaraq beynəlxalq təşkilatlara və xarici dövlətlərin rəhbərlərinə döyüşlərin dayandırılması üçün köməklik göstərilməsi barədə çağırış edir?

BMT Təhlükəsizlik Şurasının qapalı keçən iclasının yekununda elan olundu ki, Azərbaycan və Ermənistan tərəfləri arasında döyüşlər dayandırılsın, tərəflər sülh prosesinə dəvət edilsin, danışıqlar davam etdirilsin. İlk növbədə, BMT-nin belə bir qərar qəbul etməyə mənəvi haqqı yoxdur. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndinə əsasən, bütün üzvlərin beynəlxalq münasibətlərdə həm digər dövlətlərin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı, həm də BMT-nin məqsədlərinə uyğun olmayacaq şəkildə qüvvə tətbiqi ilə qorxutmaları və birbaşa qüvvə tətbiq etmələri qadağan edilir. Yəni, hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır və güc tətbiq etməklə ərazi bütövlüyünün pozulması təcavüz aktı hesab olunur. Ermənistan isə artıq 28 ildir ərazimizi işğal edib və bununla kifayətlənməyərək, əlavə olaraq, yeni



təxribatlar törədib.

Beynəlxalq hüquqda elə normalar vardır ki, onlar bütün dövlətlər üçün məcburidir. Bu normalar “jus cogens” normalarıdır. Dövlətlərin ərazi bütövlüyü prinsipi bu normalara aiddir və icrası məcburidir. BMT Nizamnaməsinin 2.7-ci maddəsinə əsasən bu nizamnamənin heç bir müddəası Birləşmiş Millətlər Təşkilatına səlahiyyət vermir ki, hər hansı bir dövlətin əsas etibarilə daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etsin. Bu gün Azərbaycanın ərazi bütövlüyünü BMT-nin özü də daxil olmaqla bütün dünya tanıyır. Bu halda Azərbaycanın öz yurisdiksiyası daxilində olan ərazini işğaldan azad etməyə haqqı var. Ermənistan tərəfinin isə Azərbaycanın sərhədləri daxilində nə işi var ki, onlara qarşı da silah işlədilsin”.

Adil Əliyev onu da əlavə edib ki, BMT tərəfindən 28 il əvvəl qəbul edilmiş Azərbaycanın ərazi bütövlüyünü tanıyan və işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələr bu günə qədər icra edilməyib: “BMT öz qətnamələrinin icrasını təmin edə bilmirsə, bu gün Azərbaycan tərəfini sülhə çağıra bilməz, buna mənəvi haqqı yoxdur. Vəziyyət o yerə çatıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının 75-ci Assambleyasında çıxış edərək bildirdi ki, Ermənistan tərəfi 28 ildir faktiki olaraq təcavüzü davam etdirir. Təhlükəsizlik Şurasının Ermənistandan Azərbaycanın işğal edilmiş ərazilərinin dərhal və qeyd-şərtsiz boşaldılmasını tələb edən dörd qətnaməsi bu günədək icra edilməyib. Hansı ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri çox qısa müddət ərzində icra edilir. Bu gün Ermənistan öz təcavüzkar siyasətini davam etdirməklə yanaşı, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş bütün normalarını kobud şəkildə pozaraq, 1949-cu il Cenevrə Konvensiyasına zidd olaraq Dağlıq Qarabağa Livandan və digər ölkələrdən insanları köçürdür. Cenevrə Konvensiyasının tələblərinə görə, döyüşlərdə muzdlular iştirak edə bilməz, lakin Ermənistan tərəfinin yaydığı videolardan da görünür ki, döyüşlərdə iştirak etmək üçün Suriyadan və digər ölkələrdən muzdlular gətirilir. Ermənistan tərəfi döyüşlər zamanı mülki əhalini və mülki obyektləri, xüsusilə heç bir halda silah işlədilməsinə icazə verilməyən xəstəxanaları, tibbi yardım maşınlarını vurur.

Sentyabrın 29-da baş tutmuş debatda Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın baş nazirini əsaslı arqumentlərlə susduraraq həm diplomatiyada, həm də döyüş meydanında düşməndən qat-qat üstün olduğumuzu bir daha sübut etdi. Prezidentimizin dediyi kimi, biz elə edəcəyik ki, Ermənistan tərəfi bir daha bizim torpaqlarımıza baxmağa belə cürət etməsin. Bu gün Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu döyüş meydanında misli görünməmiş tarix yazır. Xalqımız qələbəmizə inanır və qələbə bizimdir!”

***Rövşən RƏSULOV***



## Müdafiə Nazirliyi: Azərbaycan Ordusu ancaq hərbi obyektlərə zərbə endirir

***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan tərəfinin guya mülki şəxslərin Azərbaycan Ordusu tərəfindən atəşə məruz qalması ilə bağlı yalan məlumatlarını təkzib edib.***

Bununla əlaqədar Müdafiə Nazirliyinin mətbuat xidmətindən daxil olan məlumatda bildirilib: “Ermənistan tərəfi Hadrut və Xocavənd yaşayış məntəqələrində məskunlaşan mülki əhalinin Azərbaycan Ordusunun atəşinə məruz qalması barədə növbəti yalan məlumat yayıb. Bir daha bildiririk ki, Ermənistan ordusundan fərqli olaraq, Azərbaycan Ordusu mülki əhaliyə deyil, yalnız hərbi obyektlərə zərbələr endirir.

Bölmələrimiz tərəfindən düşmən işğalı altında olan Hadrut yaşayış məntəqəsindəki Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayın infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilib”.

# Hər gün, hər an bizi qələbəyə yaxınlaşdırır

***Son günlər cəbhə xəttindən gələn xoş, qələbə xəbərləri hər bir Azərbaycan vətəndaşını qürurlandırır, torpaqlarımızın tamamilə işğaldan azad olacağına inamı artırır. Sentyabrın 27-də bir neçə istiqamətdən müxtəlif növ silahlardan, ağır artilleriyadan mövqelərimizi, yaşayış məntəqələrimizi, kəndlərimizi atəşə tutan Ermənistan dövlət siyasətinin əsasını təşkil edən faşizmə, terrora sadiqliyini bir daha nümayiş etdirdi. Dinc əhaliyə qarşı belə qəddarlıq təbii ki, faşist xisləti Ermənistan kimi dövlətə məxsusdur.***

Güclü, qüdrətli, döyüş ruhlu Ordumuzun keçirdiyi uğurlu əks-əməliyyat nəticəsində düşmən xeyli canlı qüvvə və hərbi texnika itirərək geri oturdulub. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi, strateji əhəmiyyətli yüksəklikləri işğaldan azad edilib, həmin ərazilərimizə üçrəngli bayrağımız sancılıb. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşdəki çıxışında “Artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik” bəyan edən möhtərəm Prezidentimiz İlham Əliyev bildirdi ki, Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar, erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür: “Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında?”.



***Xatirə Əliyeva, YAP Mətbuat xidmətinin əməkdaşı, siyasi elmlər üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist***

Zaman-zaman tarixin müxtəlif dövrlərində havadarlarının dəstəyi ilə azərbaycanlılara və türklərə qarşı soyqırımı siyasəti həyata keçirən, tarixi saxtalaşdırmaqla özlərinə tarix yazan ermənilər anlamalıdırlar ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, tarixi abidələri dağıtmaq, bir milyondan çox vətəndaşımızı öz doğma torpağından didərgin salmaq cinayətdir. Azərbaycan tarixi ədaləti bərpa edir. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində də bu fakt öz əksini tapıb və bəyan edilir ki, erməni işğalçıları ərazilərimizi qeyd-şərtsiz azad etməlidirlər.

Son günlərin döyüşlərinin Ermənistan rəhbərliyi üçün dərs olmadığını bildirən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı vurğulayır ki, mülki əhalimizin hədəfə alınması erməni faşizmin eybəcər simasını göstərir: “Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülki şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı “Vətən sağ olsun” deyirlər”.

Möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyəti, xalqımızın iradəsi, Ordumuzun gücü, qüdrəti 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini yaxınlaşdırır. Ən yüksək tribunalardan xalqın səbrinin tükənməz olmadığını bəyan edən möhtərəm Prrezidentimiz sülh danışıqları səmərə vermədiyi təqdirdə hərb variantının istisna edilmədiyini hər zaman bildirir. Vətənpərvər xalqımız daim Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin hücum əmrinə hazır olduqlarını bəyan edirdilər. Bu istəklərini cənab İlham Əliyevin çağırışına uygun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək məqsədilə könüllü müraciət edənlər sırasında olmaları ilə reallaşdırırlar. Bu gün könüllülərimizin böyük ruh yüksəkliyi, qələbə əzmi ilə cəbhə bölgəsinə yollanmaları da Vətən, torpaq sevgisinin təsdiqidir. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda qismən səfərbərlik elan edilməsi haqqında Sərəncamı ölkə ictimaiyyəti tərəfindən böqük rəğbətlə qarşılanır. Yaralı hərbçilərimizlə görüşündə cənab İlham Əliyev “Mən fürsətdən istifadə edib sizin və bütün bizim digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!” fikirləri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın “Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görünməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun. Qoy uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını opməyi nəsib etsin” sözləri Azərbaycan əsgərinin döyüş əzmini, gənclərimizin vətənpərvərlik ruhunu daha da artırır.

Möhrərəm Prezidentimiz İlham Əliyevə təbrik və minnətdarlıq məktublarında bu fikir xüsusi qeyd edilir ki, Sizin gördüyünüz işlər tarix dərsliklərində əsrlər boyu öyrəniləcək. Bu, Azərbaycan xalqının öz liderinə, Prezidentinə etimadının göstəricisi olmaqla yanaşı, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin ölkəmizə qazandırdığı uğurların gələcəkdə miqyasının daha da geniş olacağına inamın təsdiqidir. “Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur” bəyan edən ölkə Prezidenti İlham Əliyev bildirir ki, işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik.

Cənab İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində təşkilatın 75 illik ybileyinə həsr olunmuş Yüksək Səviyyəli İclasda çıxışı, “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verlişdə aparıcıların suallarına cavabları qarşısında Ermənistanın baş naziri Nikol Paşinyanın aciz duruma düşməsi işğalçı dövlətə ciddi dərs olmalıdır.

Bugünkü hadisələrdən göründüyü kimi, Azərbaycan Ordusunun döyüş ruhu, qələbə əzmi Ermənistan rəhbərliyini narahat edir. Düşmən ordusunda təşviş və xaos yaşanıb. Azərbaycan Ordusunun gücü qarşısında qərar tuta bilməyən erməni əsgərləri silah sursatlarını qoyub qaçırlar. Budur, Azərbaycan Ordusunun gücü, qüdrəti, işğal altında olan torpaqlarını azad etmək imkanları. Xalqımız tam əmindir ki, dövlətimizin düşünülmüş siyasəti, Ordumuzun qüdrəti sayəsində işğal altında olan torpaqlarımız tezliklə işğaldan azad olacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq. O gün hər an, hər saniyə yaxınlaşır.

# Azərbaycan diplomatik cəbhədə də qalibdir

***İlham Əliyev: "Pakistana minnətdarıq. Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bağlı Pakistanın qətiyyətli mövqeyinə görə minnətdarıq. Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə görə Ermənistanı tanımayan ölkədir. Bu, qardaşlığın əsl nümayişidir. Bütün hallarda Pakistan həmişə yanımızdadır. Pakistanın Xarici İşlər naziri bu yaxınlarda Ermənistanın ölkəmizə qarşı təxribatı ilə bağlı bəyanat verib. Bu bəyanat haqq işimizi tam dəstəkləyir".***

Sentyabrın 27-də, bazar günü səhər saat 6:da Ermənistan əvvəlcədən xəbərdarlıq etmədən bir çox sərhədyanı kəndlərimizi intensiv atəşə tutaraq dinc sakinlərə, mülki və hərbi obyektlərə ciddi ziyan vurmaqla əslində Azərbaycana qarşı elan edilməmiş müharibəyə başladı. Müharibənin ilk günü hadisələrin xronikasının təhlili onu deməyə əsas verir ki, Azərbaycan təkcə hərbi sahədə deyil diplomatiya və beynəlxalq sahədə də üstünlüyü ələ aldı və düşmən tərəfin işğalçı olduğunu, onun son təcavüzünün əsl mahiyyətini beynəlxalq arenaya tutarlı faktlarla çatdıra bildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2020-ci ilin sentyabrın 27-də Azərbaycan xalqına müraciət edərək bir daha bəyan etdi: Qarabağ Azərbaycandır!: "Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işdir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Müharibənin elə ilk anından etibarən Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyən dost və qardaş ölkələrdən dəstək bəyanatları, açıqlamalar, zənglər və teleqramlar gəlməyə başladı. Məsələn, qardaş Türkiyənin bütün dövlət və hökümət rəsmiləri dərhal bəyanatlar verərək Azərbaycanı dəstəklədilər və Ermənistandan təcavüzkar hərəkətləri dərhal dayandırmağı tələb etdilər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə telefon zəngi edib, Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verdi, həlak olanlara Allahdan rəhmət dilədi. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğuladı. Türkiyə parlamentinin spikeri Mustafa Şentop Ermənistanın hakim rejiminin yeritdiyi siyasətə qiymət verərək bəyan etdi ki, Ermənistan terrorçu dövlət olmaqla təkcə Azərbaycan üçün yox, bütün region üçün sülhə təhlükədir.

Türkiyənin Milli Müdafiə Naziri Hulusi Akar isə "Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını boşaltmalıdır" - dedi.

Türk Şurası da Qarabağdakı vəziyyətlə bağlı bəyanat yaydı. Qurumun Baş katibi Bağdad Amreyev qarşıdurmalarda şəhid olanlar üçün Azərbaycan xalqına başsağlığı verdi və yaralılara şəfa dilədi. TÜRK PA-dan da Azərbaycana dəstək bəyanatı gəldi. Baş katib Altınbek Mamayusupov Azərbaycanın Dağlıq Qarabağ bölgəsində hərbi gərginlikdən narahatlığını ifadə edərək, çoxsaylı itkilərlə nəticələnən Azərbaycanın yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmasını qınadı. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə və ATƏT-in Minsk qrupu tərəfindən dəstəklənən danışıqlar prosesinə xələl gətirəcək hər hansı təhrikedici bəyanat və addımların qəbuledilməzliyini vurğuladı.

Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi uğrunda apardığı haqlı mübarizəsinə növbəti dəstək müsəlman dövlətlərindən gəldi. Bizə dost və qardaş ölkə olan Pakistanın xarici işlər naziri Azərbaycanın dinc əhalisinin yaşadığı kəndlərinin erməni silahlı qüvvələri tərəfindən intensiv şəkildə atəşə tutulmasını ciddi şəkildə qınayan və Dağlıq Qarabağ konfliktində Azərbaycanın mövqeyini müdafiə edən açıq bəyanat verdi. 2020-ci il sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin etimadnaməsini qəbul edərkən öz razılığını ifadə edərək belə deyib:"Pakistana minnətdarıq. Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bağlı Pakistanın qətiyyətli mövqeyinə görə minnətdarıq. Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə görə Ermənistanı tanımayan ölkədir. Bu, qardaşlığın əsl nümayişidir. Bütün hallarda Pakistan həmişə yanımızdadır. Pakistanın Xarici İşlər naziri bu yaxınlarda Ermənistanın ölkəmizə qarşı təxribatı ilə bağlı bəyanat verib. Bu bəyanat haqq işimizi tam dəstəkləyir".

Əfqanıstanın Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ regionunda Ermənistan ilə Azərbaycan arasında davam edən toqquşmalara görə narahatlığını, bu münaqişə nəticəsində insan tələfatı və maddi itkilərlə əlaqədar təəssüflədiyini bildirdi. Əfqanıstan xarici siyasət idarəsinin saytında dərc edilmiş sənəddə deyilir: "Dağlıq Qarabağ regionu beynəlxalq aləmdə Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Əfqanıstan Dağlıq Qarabağın işğalına son qoyulmasını tələb edir, Azərbaycan xalqının, Azərbaycan hökumətinin və dünyanın digər ölkələrinin bununla əlaqədar səylərini dəstəkləyir".

Azərbaycana növbəti dəstək bəyanatları keçmiş sovet respublikalarından gəldi. Ukrayna Ali Radası sədrinin birinci müavini Ruslan Stefançuk bildirdi ki,ölkəsi ilk gündən Azərbaycanın ərazi bütövlüyünü və onun bərpa olunmasını dəstəkləyir. O qeyd etdi ki, rəsmi Kiyevin mövqeyi beynəlxalq hüququn tələblərinə, suverenlik və ədalət prinsiplərinə əsaslanır: "Bizim ərazi bütövlüyümüz də separatizmdən əziyyət çəkir. Bu mənada biz dost Azərbaycanın bu ağrılı problemini yaxşı başa düşürük. Azərbaycan Respublikasının ərazi bütövlüyünü birmənalı olaraq dəstəkləyir, ərazi bütövlüyünün pozulmasını və Azərbaycan torpaqlarının işğalını qətiyyətlə pisləyirik". Ardınca Estoniya Azərbaycanın Dağlıq Qarabağ bölgəsində baş verən hadisələrdən narahat olduğunu bildirərək bu məsələnin müzakirəsini təcili şəkildə BMT Təhlükəsizlik Şurasının qeyri daimi üzvü kimi həmin qurumun iclasına çıxarmağı təklif etdi. Litvanın xarici işlər naziri Linas Linkyaviçyus və Latviyanın xarici işlər naziri Edqars Rinkeviçs də Ermənistanın Azərbaycana qarşı təcavüzündən narahatlıqlarını bildirən bəyanatlar yaydılar.

Rusiya hələlik bu hadisələri susqunluq, səbr və təmkinlə qarşılayır. Rusiya prezidenti Vladimir Putin bəyan edib ki, Rusiya qonşuların daxili işinə qarışmır. Bu əslində Ermənistana mesajdır. Ermənistanın ən çox dəstək gözlədiyi təşkilat isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) idi. KTMT hərbi əməliyyatlarla bağlı 28.09.2020-ci ildə açıqlama yaydı. Qurumun baş katibi Aleksandr Zasın adından yayılan açıqlamada təşkilatın Dağlıq Qarabağda vəziyyətin eskalasiyası ilə bağlı ciddi narahatlıq keçirdiyi ifadə olundu. "Mövcud vəziyyət 1994-cü ildə atəşkəs haqqında sazişin və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması çərçivəsində güc tətbiq edilməməsi ilə bağlı qarşılıqlı öhdəliklərin icrasına yardım etmir. Dərhal atəşkəs rejimini bərpa etmək və ATƏT-in Minsk qrupunun apardığı danışıqlar prosesinə qayıtmaq lazımdır. Dağlıq Qarabağda münaqişənin həlli yalnız siyasi-diplomatik metodlarla mümkündür. Kollektiv Təhlükəsizlik Şurası, KTMT-nin Xarici İşlər nazirləri Şurası öz bəyanatlarında dəfələrlə tərəfləri münaqişə vəziyyətlərini istisnasız olaraq sülh yolu ilə nizamlamağa nail olmağa, gərginliyi artırmağın qarşısını almaq məqsədi ilə təxribatçı fəaliyyətlərdən çəkinməyə çağırıb", - deyə KTMT baş katibi vurğulayıb.

İşğalçı Ermənistanın əli bu təşkilatın də ətəyindən üzüldü.

Hazırda Azərbaycan Prezidenti İlham Əliyev mütəmadi olaraq dünyanın aparıcı dövlətlərinin liderləri, beynəlxalq təşkilatların rəhbərləri, nüfuzlu siyasi xadimlərlə telefon danışıqları aparır. Sentyabrın 27-də Fransa prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə telefonla zəng etdi. O, Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd etdi və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğuladı. Telefon söhbəti zamanı dövlətimizin başçısı sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd etdi ki, Ermənistanın Azərbaycan silahlı qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olmuşdur. Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.



Azərbaycan Prezidenti bildirdi ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Sentyabrın 29-da Almaniya Kansleri Angela Merkel də Prezident İlham Əliyevə telefonla zəng etdi. Angela Merkel Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə edib və hadisələrin gedişi ilə maraqlanıb.

Dövlətimizin başçısı Almaniyanın kanslerinə son hadisələrə aid fikirlərini bildirməklə eyd etdi ki, sentyabrın 27-də, səhər saatlarında Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək, ağır artilleriya qurğularından təmas xətti boyu yerləşən hərbi birləşmələrimizi, şəhər və kəndlərimizi atəşə tutması nəticəsində iki gün ərzində hərbçilərimiz, 10 mülki şəxs, o cümlədən iki uşaq həlak olub, 29 mülki şəxs yaralanıb, 150 yaşayış evi dağıdılıb və bütün bunlara görə Azərbaycan tərəfi əks-hücum əməliyyatına başlayıb.

Prezident İlham Əliyevlə BMT-nin Baş katibi Antonio Quterreş arasında videokonfrans formatında görüş də baş tutub. Azərbaycan Prezidenti ona 27 sentyabr 2020-ci ildə Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təxribatla bağlı hadisələrin gedişinə dair məlumat verdi. Prezident qeyd etdi ki, sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutub və bunun nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Müsəlman dünyasında nüfuzlu dövlətlərdən biri olan İndoneziya parlamentinin Milli Oyanış Partiyası fraksiyası da Azərbaycan dövlətinin haqlı mövqeyini müdafiə edən bəyanat yaydı. Bəyanatda deyilirdi: "Biz Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü pisləyirik". Göründüyü kimi, Azərbaycanın haqlı mövqeyini müdafiə edən dövlətlərin və təşkilatların sayı günü-gündən artmaqdadır. Hərbi-siyasi cəhətdən dalana dirənmiş Ermənistan diplomatik meydanda da nokauta düşmək üzrədir.

***İlkin ƏLİYEV,***
***Gənc Politoloqlar Mərkəzinin sədri***

## Rusiya XİN Ermənistana xəbərdarlıq siqnal göndərdi!



Məlum olduğu kimi, azərbaycanlı sosial şəbəkə istifadəçisi Fərhad Məmmədov erməni teleqram kanallarının birindən sızmış və işğalçı ölkənin silahlı qüvvələrinə muzdla cəlb edilmiş terrorçular barədə məlumatı ictimailəşdirib. SİA xəbər verir ki, sözügedən məlumatda Yaxın Şərq ölkələrindən gətirilmiş Suriya və Livan terrorçuları, həmçinin PKK barədə danışılır. Qeyd olunur ki, bununla yanaşı ASALA (Ermənistanın gizli azadlığı ordusu) üzvü işğalçı ölkənin ən son hərbi geyimində çıxış edərkən, onun həmin vəziyyəti diqqətdən yayınmayıb. Livandan olan erməni terrorçusu çıxışında Qarabağda guya "İŞİD"lə döyüşdüyünü iddia edir, bununla da erməni şər-böhtanını ictimailəşdirməyə cəhd edir. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyan da bu barədə sərsəm iddialarını irəli sürmüşdü. Ancaq fakt budur ki, erməni terrorçusunun çıxışı və çıxışının sızdırılması işğalçı ordunun tərkibində PKK, ASALA və s. Suriya və Livan terror qruplaşmalarının mövcudluğunu isbatlamış olur. Bundan əlavə, ermənilər terrorçu dəstələrə Rusiya və Gürcüstan vasitəsi ilə də erməni mənşəli insanları cəlb etməyə çalışırlar. Lakin burada ortaya çıxan daha bir maraqlı məqam Rusiya Xarici İşlər Nazirliyinin (XİN) həmin fakta dərhal münasibət sərgiləməsidir.

"Dağlıq Qarabağ münaqişəsinin baş verdiyi zonaya Suriyadan və Livandan olan silahlıların göndərilməsi, onların hərbi birləşmələrə cəlb edilməsi, bununla da hərbi əməliyyatlarda iştirakları barədə məlumatlar daxil olmaqdadır", deyilən rəsmi məlumatda o da qeyd edilir ki, yaranmış vəziyyət region ölkələrinin təhlükəsizliklərinə təhdid yaradır.

Beləliklə, Rusiya XİN açıq ifadə etməsə də, dolayısı ilə təqdim edilən səhih informasiya əsasında Ermənistana xəbərdarlıq siqnalı göndərir. Daha dəqiq desək, bu fakt sübut edir ki, işğalçı və təcavüzkar rejimin ifşası onun həm də terrorçuluq məqsədlərini ortaya qoyur. Yeri gəlmişkən, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də sözügedən faktla bağlı xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalına müsahibəsində və BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlar seqmentində çıxışı zamanı Ermənistan tərəfindən Yaxın Şərq ölkələrindən Azərbaycanın işğal olunmuş ərazilərinə terrorçuların və muzdluların gətirilməsi prosesi olduğunu vurğulamışdı.

"Uzun müddət ərzində Ermənistan tərəfindən bu siyasət həyata keçirilir", deyən Prezidentin köməkçisi onu da bildirib ki, həmçinin bu terrorçular Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə ailələri ilə birlikdə gətirilərək onların məskunlaşdırılması həyata keçirilir: "Həmin şəxslər Azərbaycana qarşı hərbi əməliyyatlarda da iştirak edirlər. Bu da Azərbaycanın ciddi narahatlığına səbəb olan məsələdir. Bununla bərabər, 1990-cı illərdə Ermənistan-Azərbaycan münaqişəsinin aktiv fazasında da muzdlulardan, terrorçulardan geniş şəkildə istifadə edilib. Burada ASALA terror təşkilatını, ARABO, ARAMO kimi terror qruplaşmalarını qeyd etmək lazımdır. Elə bu günlərdə Yaxın Şərq ölkələrindən erməni əsilli bir şəxs ASALA terror təşkilatının təmsilçisi olaraq Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycana qarşı vuruşduğunu özü etiraf edir. Azərbaycanın da narahatlıqları var və beynəlxalq ictimaiyyət tərəfindən də Ermənistanın bu kimi terrorçu qüvvələri Azərbaycana qarşı istifadə etməsinə adekvat reaksiya verməlidir".

***Rövşən RƏSULOV***

# Prezidentə yazırlar: "Bu gün hər bir Azərbaycan vətəndaşı Sizin ətrafınızda sıx birləşərək həmişəkindən daha güclü birlik nümayiş etdirir"

***Ordumuzun cəbhədə Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını müvəffəqiyyətlə alması, düşmənə ağır zərbələr endirməsi Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Zaqatala şəhərindən əsgər anası Elmira Hacıyeva yazır: "Möhtərəm cənab Prezident, bu gün Azərbaycanımızın şanlı əsgərləri əzəli-əbədi torpaqlarımıza soxulan erməni qaniçənlərinə sarsıdıcı zərbələr endirir. Torpaqlarımız 30 illik işğaldan azad edilir. Ordumuzun mətinliyi, igidlərimizin vətənpərvərliyi bizləri sevindirir. Sevinirik ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Erməni faşistləri düşünürdülər ki, illər keçdikcə Qarabağ torpaqları azərbaycanlıların yadından çıxacaq. Ağıllarına gətirmirdilər ki, əksinə Qarabağ sevgisi, Vətən sevgisi bu 30 ildə xalqımızın qəlbində məşələ çevriləcəkdir. Düşünmürdülər ki, oğullarımız müharibəyə toya-bayrama gedər kimi ruh yüksəkliyi ilə, Qələbə əzmi ilə gedəcəklər. Cənab Prezident, Siz ermənilərı xəbərdar etmişdiniz və bildirmişdiniz ki, əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Bu gün Sizin Vətənimizin bütövlüyü, xalqımızın rifahı üçün apardığınız bütün siyasəti dəstəkləyirik. Bir nəfər kimi ətrafınızdayıq. Cənab Ali Baş Komandanımız, bütün xalqımız Sizin yanınızdadır. Qələbə bizimdir, Vətən bizimdir. İrəli, Azərbaycan əsgəri! Əziz Prezidentimiz, Uca Tanrım Sizi və əsgərlərimizi qorusun".

Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələri adından rektor Elçin Babayevyazır: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, artıq bir neçə gündür ki, təcavüzkar Ermənistan xislətinə uyğun işğalçılıq siyasətini davam etdirərək yeni ərazilər qəsb etmək məqsədilə bütün cəbhəboyu hücuma keçməyə cəhd göstərir, beynəlxalq humanitar hüquq normalarını, beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq mülki əhalimizi, yaşayış məntəqələrimizi müxtəlif növ silahlardan, o cümlədən iriçaplı artilleriyadan atəşə tutur. Düşmənin xain hücumlarının qarşısını almaq, təhlükəsizliyimizi təmin etmək məqsədilə Sizin rəhbərliyinizlə bütün cəbhəboyu əks-hücuma keçən müzəffər Azərbaycan Ordusu tərəfindən erməni vandallarının törətdiyi növbəti təxribatın qarşısı qətiyyətlə alınır, düşmənə adekvat cavab verilir. Ordumuz tam şəkildə hərbi və mənəvi üstünlük əldə edərək, düşmənə sarsıdıcı zərbələr endirir. Fərəhli haldır ki, xalqımız hər gün, hər saat uzun illər ərzində işğal altında qalan ərazilərimizin, yaşayış məntəqələrinin işğaldan azad edilməsi, strateji əhəmiyyətli yüksəkliklərin ələ keçirilərək nəzarətə götürülməsi barədə rəsmi qələbə xəbərləri alaraq bu zəfərlərin qürur və sevincini yaşayır. Xüsusilə, Sizin xalqımıza müraciətiniz, BMT-nin 75 illiyinə həsr edilmiş iclasda dərin məzmunlu çıxışınız və Rusiyanın "Rossiya-1" telekanalına verdiyiniz müsahibənizdə səsləndirdiyiniz fikirlər, haqlı və keskin mövqeyiniz bizdə Böyük Qələbəyə inamımızı daha da artırıb. Bu gün ölkəmizin ərazi bütövlüyünü təmin etmək, torpaqlarımızı tam olaraq işğaldan azad etmək üçün tarixi bir məqam yetişib. Bilirik ki, bu şansı əldən verməmək üçün bizə birlik və həmrəylik hər şeydən vacibdir. Bu gün hər bir Azərbaycan vətəndaşı rəşadətli və yenilməz Silahlı Qüvvələrimizin, Sizin ətrafınızda daha sıx birləşərək həmişəkindən daha güclü birlik və həmrəylik nümayiş etdirir. Cənab Ali Baş Komandan, bizə bu xoş günləri yaşatdığınıza görə Sizə Bakı Dövlət Universiteti ailəsi adından hədsiz təşəkkür edirik. Sizin hər bir əmrinizi layiqincə yerinə yetirməyə, Böyük Qələbəyə nail olunması naminə dövlətimizə və ordumuza hər cür dəstək verməyə hər an hazırıq. İnanırıq ki, Sizin rəhbərliyinizlə biz mütləq qalib gələcəyik! Əminik ki, o gün uzaqda deyil. Allah Sizi və rəşadətli Ordumuzu qorusun!".

Mingəçevir şəhərindən Səba Osmanova: "Möhtərəm cənab Prezident, Sizə hərbçi ailəsi olaraq öz təşəkkürümü bildirmək istəyirəm. Siz daim xalqın qayğısına qalan, hər bir vətəndaş üçün narahat olan Prezidentsiniz. Çətin zaman kəsiyində olmağımıza rəğmən inanıram ki, Sizin təşkilatçılığınızla hər bir çətinliyin öhdəsindən gələcəyik. Fəxr edirəm ki, həyat yoldaşım Azərbaycan Respublikasının şanlı Ordusunda xidmət edir. Sizin verdiyiniz hər bir qərar bizim üçün qanundur. Allah Sizi, əsgərlərimizi, zabitlərimizi və xalqımızı qorusun. Amin".

Bakı şəhərinin Binəqədi rayonundan Niyaz Cəlilov və Ərəstun Yusibov yazırlar: "Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. Cəbhədə baş verən bu döyüş günlərində Sizə, Ordumuza və xalqımıza qələbə, zəfər arzu edirəm. Artıq biz bunun ilk soraqlarını alırıq. Şanlı və rəşadətli Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirir, torpaqlarımızı işğaldan azad edir. Cənab Prezident, Qələbəyə doğru gedən yolda Sizin yanınızdayıq. Allah Sizi qorusun".

İmişli şəhərinin sakini Rüstəm Qüdrətov: "Hörmətli cənab Ali Baş Komandan, Qarabağ torpaqlarının azad olunması haqqında verdiyiniz əmrə görə Sizə təşəkkür edir, uğurlar arzulayırıq. Biz Sizi dəstəkləyirik. Qarabağ torpaqlarının azad olunması yolunda İmişli oğulları da hazırdırlar. Tanrı köməyiniz olsun, cənab Prezident".

Azərbaycan Dövlət Aqrar Universitetinin dosenti, ehtiyatda olan mayor Elçin Atayev yazır: "Möhtərəm cənab Prezident, mən Qarabağ müharibəsi veteranıyam, müxtəlif bölgələrdə vuruşmuşam. Milli Ordumuzun qeyrətli övladlarının Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində erməni təxribatına qarşı sentyabrın 27-30 tarixlərində layiqli cavabları məni keçmiş hərbçi kimi ürəkdən sevindirir. Mən tam əminəm ki, Sizin uzaqgörən daxili və xarici siyasətiniz nəticəsində biz böyük Qələbəyə nail olacağıq. Möhtərəm Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür, şanlı Milli Ordumuzun daha da qüvvətlənməsi naminə yeni-yeni uğurlar diləyirəm".

Abşeron rayonundan Nihat Ağayev: "Hörmətli cənab Prezident, mənim 10 yaşım var, əslən ağdamlıyam. Amma mən hələ Ağdamı görməmişəm. Mənim ən böyük arzum Ağdamı azad görməkdir. Son günlər Vətənimiz uğrunda gedən döyüşlər məni çox sevindirir və inanıram ki, Sizin rəhbərliyinizlə biz qalib gələcəyik və dünyanın ən gözəl yeri olan Qarabağ yenidən bizim olacaq".

Beyləqan rayonundan Əbdül Təhməzov: "Hörmətli cənab Prezident, Sizin bu uğurlu işlərinizi bütün Azərbaycan dəstəkləyir. Cəbhə bölgəsində əldə olunan uğurlar uzun illər ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Əsgərlərimizin və xalqımızın döyüş ruhuna və birliyinə heyran qalmışam. Bunun sayəsində biz hələ çox uğurlar əldə edəcəyik. Allah Sizə və bütün ailə üzvlərinizə uzun ömür versin".

Lənkəran rayonunun Sinovli kəndinin sakini Bəhlul Hüseynovun məktubunda deyilir: "Möhtərəm cənab Prezident. Düşmən təxribatına əks-hücumla cavab verilməsi haqqında əmrinizi dəstəkləyirəm. Gün olsun ki, xalqımıza Qələbə müjdəsi verəsiniz. Xalq Sizi alqışlayır. Sevincdən gözlərimiz dolub. Yaşlı olmağıma baxmayaraq, mən də Ordumuza bu dar gündə kömək etmək istəyindəyəm. Müəllim kimi cəbhədə yaxşı təbliğatçı ola bilərəm. Əmr olduğu halda, cəbhəyə getməyə hazıram".

Laçın rayon Ağsaqqallar Şurasının sədri Ağayar İsmayılov: "Möhtərəm cənab Prezident, Ali Baş Komandan kimi rəhbərliyinizlə torpaqlarımızın yağı düşməndən azad edilməsinə başlanması biz yaşlı nəslin nümayəndələrini də ürəkdən sevindirir. İnanırıq ki, uzun illərdən bəri istər ölkəmizin inkişafı, istərsə də ordu quruculuğu istiqamətində yorulmaz fəaliyyətiniz artıq öz bəhrəsini verdi. Dəfələrlə vurğuladığınız kimi xalqımızın haqq işi Qələbə çalacaq. Siz zəfər bayrağını Şuşada, Laçında və digər azad olunacaq torpaqlarımızda ucaldacaqsınız. Bu taleyüklü məsələnin həlli naminə yorulmaz fəaliyyətiniz xalqımızı bir daha ətrafınızda səfərbər edərək daha da sıx birləşdirdi. Sizinlə qürur duyur, fəxr edirik. Xalqımıza bəxş etdiyiniz sevincli anlara görə Sizə dərin minnətdarlığımızı bildiririk. Qəti inanırıq ki, rəhbərliyinizlə ordumuzun həyata keçirdiyi bu müqəddəs iş nəticəsində dövlətimizin ərazi bütövlüyü təmin olunacaq. 30 ildən çox bir müddətdə ata-baba yurdlarının həsrəti ilə yaşayan köçkünlər öz doğma evlərinə dönəcəklər. Allah bu müqəddəs işdə Sizə yar olsun".

Şəki şəhərindən Zabit Həsənov və Sevinc Musayeva yazırlar: "Hörmətli cənab Prezident, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda apardığınız qətiyyətli siyasətə görə Sizə öz adımızdan və ailələrimiz adından minnətdarlığımızı bildiririk. Ən böyük arzumuz Qarabağın azad edilməsidir. Sizə və Ordumuza bu yolda uğurlar arzulayırıq. İnşallah, Sizin və Ordumuzun sayəsində Qələbə bizimlə olacaq. Allah hər birimizə Şuşada Azərbaycan Bay-

# Prezidentə yazırlar: "Bu gün hər bir Azərbaycan vətəndaşı Sizin ətrafınızda sıx birləşərək həmişəkindən daha güclü birlik nümayiş etdirir"

rağının dalğalanmasını görməyi nəsib etsin".

Şəki şəhərinin daha bir sakini Elmira Hacıyeva: "Möhtərəm cənab Prezident, Şəki Tibb Kollecinin kollektivi Sizin müdrik və uzaqgörən siyasətinizi birmənalı şəkildə müsbət qiymətləndirir. Azərbaycanın tarixi torpaqlarını, Qarabağımızı zəbt edən mənfur ermənilərə qarşı aparılan döyüşlərə mənəvi dəstəyimiz sonsuzdur. Sizin qeyd etdiyiniz kimi, biz Ermənistan torpağını işğal etməmişik. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun! Əminik ki, düşmənimiz bundan sonra da layiqli cavabını alacaq. Azərbaycan Ordusu buna qadirdir. Onlar öz doğma torpağını müdafiə edirlər, Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi isə qəlbimizdə əbədi yaşayacaq. Qarabağ bizimdir, bizim olacaq!".

Neftçala rayonu Yenikənd kənd məktəbinin şagird valideynləri adından Ə.N.Qafarova, Ü.Q.Hüseynova və A.Q.Həsənova yazırlar: "Əziz Prezidentimiz, Sizin verdiyiniz Sərəncamla bu il bizim kəndimizdə yeni məktəb binası inşa olundu. Yeni məktəb binasının tikintisi barədə xəbər həm uşaqlar, həm də biz valideynlərdə bu çətin və həssas pandemiya dövründə gələcəyə daha ümidli baxışlarla baxmağa zəmin yaratdı. Binanın ilk təməl qoyuluşundan tutmuş, bina tam hazır olana kimi işlərin gedişini sevinclə izləmişik. Hələ övladlarımızı demirəm... Onların körpə qəlblərində bu cür sevinc, xoşbəxtlik hissini yaşatmaq hər insana nəsib olmur. Siz bunu çox gözəl bacarırsınız, əziz Prezidentimiz. Hər il yüzlərlə uşaqlara bu sevinc hissini bəxş edirsiniz. Bütün bunlar Sizin təhsilimizə göstərdiyiniz qayğının nəticəsidir. Uşaqlara xoşbəxt hisslər yaşatmaq insanlığın ən gözəl, ən vacib əməllərindən biridir. Bu hissi övladlarımıza yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Övladlarımız belə müasir, geniş və hər cür şəraiti olan məktəbdə təhsil aldıqları üçün çox şanslıdırlar. Ən böyük şansımız isə Sizin kimi bir Prezidentimizin olmasıdır. Biz hər zaman Sizinləyik".

Gəncə şəhərindən Oruc Vəliyev və Ramiz Sadıxov yazırlar: "Hörmətli cənab Prezident, cəbhə bölgəsində düşmən təxribatına əks-hücumla cavab verilməsi barədə göstəriş və qısa müddətdə əldə olunan uğurlar bizi sevindirdi, qəlbimizi dağa döndərdi. Biz ahıl insanlar üçün bu xəbərlər sanki ömrümüzə ömür calayır. Demək ki, taleyimizdə bu günləri görmək də varmış. O qədər ruhlanmışıq ki, bu qoca yaşımızda əlimizə silah götürüb cavanlarla vuruşmaq istəyirik. Cənab Prezident, Allah ömrünüzü uzun eləsin. Bizə təkcə qələbə sevinci deyil, yeni həyat eşqi, yaşamaq sevdası bəxş etdiniz. Hər zaman Sizinləyik".

Mingəçevir şəhərindən Firdovsi Məsimov və Könül Məsimova yazırlar: "Hörmətli cənab Prezident, tarixi keçmişdən bu günədək daim Ermənistanın təcavüzkarlığının Azərbaycan dövlətinə və xalqına təhlükə törətdiyini görürük. Erməni terroruna və işğalına qarşı mübarizədə irəli sürdüyünüz qətiyyət şübhəsiz ki, təqdirəlayiqdir. Artıq illərlə gözlədiyimiz gün gəlib çatıb. Biz Sizə inanırıq. Sizin uğurlu daxili və xarici siyasətiniz güclü Azərbaycan Ordusunu formalaşdırdı. Həmin siyasət və güclü ordu ilə yaxın gələcəkdə torpaqlarımızı azad edəcəyik. Bu günü bizə yaşatdığınıza görə Sizə təşəkkür edirik. Azərbaycan xalqı daim Sizinlə fəxr edib, edir və edəcək. Əminik ki, Sizin rəhbərliyinizlə Qarabağımız qısa müddət ərzində işğaldan azad olunacaq. Ya Qarabağ, ya ölüm! Bizim başqa yolumuz yoxdur. Yaşasın, Azərbaycan Ordusu! Var olsun, cənab Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".



Azərbaycan Dövlət Aqrar Universitetinin baş müəllimi Fazilə Əliyeva yazır: "Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə şanlı Ordumuz düşmənlərimizə layiqincə cavab verir. Bu Sizin düzgün daxili və xarici siyasətinizin nəticəsidir. Biz inanırıq ki, yaxın zamanda üçrəngli bayrağımız zəbt olunmuş torpaqlarımızda dalğanacaq. Cənab Ali Baş Komandan, mən fəxr edirəm ki, Siz bizim Prezidentimizsiniz. Biz həmişə Sizin yanınızdayıq".

Lənkəran şəhərindən Baldadaş Əliyev: "Hörmətli cənab Prezident, Sizin sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə aparıcıların suallarına verdiyiniz məntiqli, müdrik, əsaslandırılmış və əsl siyasətçiyə xas cavablarınız Lənkəran Dövlət Universitetinin professor-müəllim və tələbə kollektivində qürur hissi oyatmışdır. Bunun əksinə olaraq, siyasi baxımdan savadsız və yalançı Paşinyanın verdikləri izahlar nə qədər gülünc və əsassız idi. Biz bir daha əmin olduq ki, Sizin rəhbərliyinizlə tezliklə mənfur düşmənə qalib gələcəyik. O gün uzaqda deyil. Haqq bizim tərəfdədir. Biz Sizin yanınızdayıq. Sizin müstəqil Azərbaycan naminə bütün addımlarınızı bəyənir və dəstəkləyirik".

Bakı şəhərinin sakini Müzəffər Müzəffərov: "Cənab Prezidentimiz, Sizi Ali Baş Komandanı olduğunuz Ordumuzun zəfər yürüşləri münasibətilə təbrik edirəm. Bu qürurlu günlərdə şəhid və yaralı əsgərlərimiz haqqında məlumatlara Sizin qədər biz də kədərlənirik. Nəzərinizə çatdırıram ki, mən bir keçmiş döyüşçü kimi özümü keçmişin yox, bu günün əsgəri sayıram və əlimdə silah daim döyüşə getməyə hazıram. Təki Vətənim mənfur düşmənlərimizdən təmizlənsin. Uca Allahdan bunları arzulayıram".

Masallı rayonunun Çayqıraq kəndindən Rəşad Cəfərov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Azərbaycan xalqı işğalçı Ermənistan dövlətinə qarşı apardığınız qətiyyətli mübarizədə son nəfəsinədək Sizin yanınızdadır. Sizin qəbul etdiyiniz qərarlar, apardığınız danışıqlar, qətiyyətli mövqeyiniz qeyrət simvoludur. Erməni işğalçıları və onun havadarları bilməlidir ki, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ Sizin rəhbərliyinizlə tez bir zamanda azad ediləcəkdir. Yaşasın Azərbaycan, yaşasın Azərbaycan xalqının fəxri olan Prezidentimiz!".

Türkiyənin İstanbul şəhərindən Ömər Öztürk dövlətimizin başçısına yazır: "Hörmətli cənab Prezident, Qarabağda ordunuzun uğurlu əməliyyatları barədə xəbərlər bizi xoşbəxt etdi, hər kəndin adı çəkildikcə ayrıca sevinc anları yaşadıq. Hər yaralanan əsgər, hər şəhid xəbəri ürəyimizdə bir yara oldu. İnşallah, Qələbə xəbəri bu yaraları sağaldacaq. İnşallah, xalqınız Qarabağda gözəl günlər yaşayacaq. Mən də bu mübarizənizdə Sizlərlə bir sıradayam. Yaşasın türk birliyi! Çox yaxın günlərdə Şuşada, Xankəndidə, Xocalıda ucalacaq azan səsləri Qarabağın hər guşəsində eşidiləcək".

Kayseri şəhərindən Saraç Mustafa: "Hörmətli cənab Prezident, biz türklər ermənilərlə mübarizədə bütün qəlbimizlə Sizi dəstəkləyirik. Azərbaycan Ordusunun tərkibində Dağlıq Qarabağ və işğal altındakı digər torpaqlar üçün qardaşlarımızla vuruşmağı ürəkdən istəyirik. Xain ermənilər bilməli idilər ki, türklər üçün qazdıqlara quyuya bir gün özləri düşəcəklər. Onların elə bugünkü durumu da quyunun dibində yazıq-yazıq durub kimdənsə kömək gözləyən birini xatırladır. Bu, Sizin siyasi, diplomatik və hərbi uğurunuzdur, cənab Prezident. Uğurlarınızın davamı gəlsin".

Aydın şəhərindən Yakup Kurt: "Hörmətli cənab Prezident, Sizin də dediyiniz kimi, "Qarabağ Azərbaycandır!" Biz bunu belə görmüşük, belə oxumuşuq və belə də bilirik. Mən 53 yaşındayam, polis işçisi olmuşam, hazırda təqaüddəyəm. Canımla, qanımla Azərbaycan dövlətinin yanındayam. Hansı an "gəl!" əmri verilsə, gələcəyəm. Belə bir gündə cəbhə xəttində olmaq hər birimizin borcudur. Sizə Qarabağ qələbəsi arzu edirəm, cənab Prezident".

Beynəlxalq Avrasiya Həmkarlar İttifaqı Birliyinin və Türk Egitim-Sen Həmkarlar İttifaqı Komitəsinin sədri Talip Geylan: "Hörmətli cənab Prezident, bir daha işğalçı Ermənistanın beynəlxalq hüququ və insan haqlarını pozan, Azərbaycan ərazisinə və birbaşa mülki əhalini hədəf alan xain hücumunu qətiyyətlə pisləyirəm. Türk Egitim-Sen Həmkarlar İttifaqı Komitəsi olaraq bütün varlığımızla qardaş Azərbaycan xalqının yanındayıq. Bir daha bildirirəm ki, Azərbaycanın beynəlxalq hüquqla təsdiq edilmiş bütün hüquqlarını sonadək müdafiə edəcəyik. Azərbaycan torpaqlarının 20 faizi işğal edildi və 1 milyondan çox soydaşımız evlərindən didərgin düşdülər. Qarabağ təkcə Azərbaycanın deyil, həm də Türkiyənin həsrətinə çevrildi. Qarabağ məsələsinin yeganə həll yolu Ermənistanın dərhal işğal olunmuş ərazilərini tərk etməsi və 30 ildir əziyyət çəkdiyi bütün vətəndaşlarımıza təzminat ödəməsidir. Ermənilərin məsuliyyətsiz rəhbərləri bu günə qədər bunu etmədikləri üçün bu gün Dağlıq Qarabağı və işğal olunmuş bütün ərazilərimizi öz gücümüzlə azad etmək təbii haqqımızdır. Bəzi beynəlxalq təşkilatların Azərbaycan və Ermənistanı danışıqlara çağırmalarını mənasız hesab edirik. Bu nöqtədə, danışıqların yeganə mövzusu Ermənistan tərəfindən işğal olunmuş torpaqlardan çıxma təqvimi olmalıdır. Türkiyənin Azərbaycana münasibəti və dəstəyi yalnız sözdə deyil, hər iki dövlətin rəsmi xarici siyasət strategiyasında, qarşılıqlı münasibətində də yer alıb. Bu münasibətin təbii nəticəsi olaraq, canımız, qanımız və bütün varlığımızla Azərbaycanın yanındayıq. Duamız və dəstəyimiz Sizinlədir. Həmişə olduğu kimi ürəkdən deyirik, Qarabağ türk torpağıdır, belə də qalacaq! Həsrət sona yetəcək. Gec-tez üçrəngli Bayraq Qarabağın hər guşəsində dalğalanacaq".

Kocaeli şəhəri Arif Karadurakoğlu: "Hörmətli cənab Prezident, Türkiyədəki qardaşlarınızdan biri olaraq haqq mübarizənizi dəstəkləyir, yeni uğurlar diləyir, bu mübarizənizdə maddi, mənəvi dəstəkdən başqa canımla da Sizlərlə bir sırada olduğumu şərəflə bildirirəm. Allah yar və yardımçınız olsun".

Almaniyanın Vuppertal şəhərində yaşayan Osman Dənizxanlı: "Möhtərəm cənab Prezident, cənab Ali Baş Komandan, son günlər cəbhə bölgəsindən gələn xəbərlər məni və bütün xalqımızı çox sevindirir və qürurlandırır. Siz və Sizin əmrinizdə olan Azərbaycan Ordusu düşmənlərimizə və bütün dünyaya göstərdiniz ki, Qarabağ uğrunda, öz torpaqlarımız uğrunda sona qədər döyüşməyə hazırıq. Bunları yazaraq Sizə dərin hörmət və dəstəyimi bildirir, hər an əmrinizdə olduğumu bir daha ifadə etmək istəyirəm. Qəlbimiz Vətən ilə döyünür. Sizin rəhbərliyiniz və Allahın köməyi ilə yaxın vaxtlarda torpaqlarımızı son qarışına qədər geriyə alacağımıza inanırıq. Yolumuz haqq yoludur. Qarabağ Azərbaycandır!".

# Bizim mübarizəmiz haqq mübarizəsidir!

*Prezident İlham Əliyev: "Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"*

***Bu real faktdır ki, Ermənistanın faşist xislətli küçə "demokratı" Nikol Paşinyan bu günə kimi Azərbaycan Prezidenti İlham Əliyev cənablarının bütün beynəlxalq görüşlərdə verdiyi ibrət dərsdən bir nəticə çıxara bilməyib. Bu aksiomadır, çünki başa düşüləsi boş başla nəyi dərk və ibrət dərsi götürə bilər. Sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti bir daha Nikolun faşist mahiyyətini bütün dünyaya göstərir.***



Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, "Qarabağ Azərbaycandır və nida işarəsi". Bu günlərdə dövlət başçımızın Azərbaycan xalqına müraciətində də bir daha Ermənistanın baş nazirinin yalan və sərsəm informasiyaları haqqında bildirib ki, Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır: "Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi".

Dövlət başçısı onu da deyib ki, bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, biz bu dəstəyi daim hiss edirik: "Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır və 30 ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm ki, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq".

**Artıq bu gün qələbə xəbərlərimiz dayanmadan gəlməkdədir. Gözün aydın Azərbaycanımız, gözün aydın xalqım mənim, gözün aydın bütün türk xalqım!**

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib ki, Füzuli-Cəbrayıl istiqamətində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Abdurrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib.

Bundan əlavə, Ağdərə rayonu və Murovdağ istiqamətlərində düşmən postları darmadağın edilib, hakim yüksəkliklər nəzarətə götürülüb. Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənib, düşmən xeyli itki verib. Qələbələrimizin sorağı ardıcıl gəlməkdədir və gələcək.

Bəli, bu sevinc, bu qələbə güclü ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu, proqmativ siyasətinin nəticəsində əldə olunmaqdadır. Çünki Güclü Ordu ilə Güclü Dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Və sentyabrın 27-dən başlayaraq Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhə boyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq qoşunların təmas xəttində növbəti təxribatların uğurla qarşısının alınması, məhz müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlarının, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusunun olmasının nəticəsidir. Daha dəqiq desək, Azərbaycanın şanlı silahlı qüvvələrinin cəbhədə əldə etdiyi zəfərləridir. Əslində, bu gözlənilən idi. Çünki uzun müddət idi ki, işğalçı Ermənistan rəhbərliyi, bu rejimin Qarabağdakı yedəyi - "Dağlıq Qarabağ Respublikası" separatçıları zaman-zaman özlərinə güvənən bəyanatlarla çıxış edir, "qüdrətli və məğlubedilməz erməni ordusu"nun imicini reklam etməklə siyasətdəki yerlərini möhkəmləndirməyə çalışsalar da yenə də Azərbaycan ordusu onları zamanında yerlərinə oturtdu və dərslərini verdi. Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bugünkü qələbənin Ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir".

Və bu gün erməni xalqı bir daha anlamır ki, Ter-Petrosyan hakimiyyətindən tutmuş indiki "küçə demokratı", başıpozuq, xəstə təfəkkürlü Nikol Paşinyana kimi savadsızların uğursuz hakimiyyət siyasətinin əziyyətini elə sadə erməni xalqı çəkir. İşğalçı və quduzlaşmış Paşinyan bu günə kimi hansı qələtləri etməyib? "Qarabağ Ermənistanındır, vəssalam!" böyük qələtini edərkən, Azərbaycan Prezidentinin cavabı "NİDA!" olmalı idi. Bu qələti edəndə Azərbaycan Ordusunun cavabı belə olmalı idi! Çünki düz yola gəlmədiyi halda növbəti dəfə elədiyi qələtlərin bədəli daha ağır olacaq! Budur, işğalçı, təcavüzkarlığın və nəhayət Paşinyan və ondan əvvəlkilərin elədikləri qələtin bədəli. Unudulmayan, dünyada Azərbaycan dövlətinin, Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyasının dünya tarixində əbədi olaraq qalan qələbələr! Uğur olsun, Prezidentimiz, uğur olsun Ali Baş Komandanımız!

Ali Baş Komandan, ölkə Prezidentinin bildirdiyi kimi: "Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq".

***RƏFİİQƏ HÜSEYNOVA***

## Hazırki iqtisadi imkanlarımız əks hücumları qələbəyədək aparmağa imkan verir



***"Sentyabrın 27-də erməni təxribatından sonra mən də Horadiz şəhərində idim. Fizuli rayonunda həm vəziyyəti müşahidə etmək, həm mülkü əhaliyə və həmçinin onların əmlakına erməni silahlı qüvvələri tərəfindən dəymiş ziyanı görmək imkanım oldu". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, iqtisadçı ekspert Vüqar Bayramov deyib.***

Deputat bildirib ki, xüsusən də əmlaka dəymiş ziyanın ilkin qiymətləndirilmələri aparılır: "Lakin nəzərə almaq lazımdır ki, atəşkəs dövründə belə mütəmadi olaraq təmsil etdiyim rayonda ermənilər tərəfindən dəymiş ziyanlar müşahidə olunurdu. Bu baxımdan dəymiş ziyanın aradan qaldırılması indiki halda xüsusi bir çətinlik yaratmır".

V.Bayramov vurğulayıb ki, Azərbaycanın əks hücum tədbirlərini həyata keçirməsi iqtisadiyyat üçün hər hansı bir çətinlik formalaşdırmır və gələcəkdə də bu iqtisadiyyata neqativ təsirlər göstərməyəcək: "Çünki mövcud vəziyyətdə Azərbaycan savaşın yaratdığı xərcləri kompensasiya etmək imkanına malikdir. Rahatlıqla deyə bilərik ki, hazırki iqtisadi imkanlarımız əks hücumları qələbəyədək aparmağa imkan verir".

***Aysel Məmmədova***

## "Azərbaycan xalqı və siyasi partiyalar yekdilliklə Prezidentin yanındadır"



"Bu gün Azərbaycan cəmiyyəti hər zaman olduğundan daha böyük milli həmrəyliyin şahididir. Ölkənin siyasi tarixində ilk dəfə olaraq ölkəmizin 50 siyasi partiya rəhbərinin Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olduqlarına dair bəyanatı milli vəsiyasi həmrəyliyin parlaq göstəricisidir. Bu bəyanat eyni zamanda ölkədə siyasi dialoqun mövcudluğunun sübutudur. Siyasi Partiyaların birgə bəyanatı ölkəmizdə siyasi müstəvidə etibarlı və peşəkar münasibətlərin qurulmasına zəmin yaradır. Bu bəyanatın hazırki vaxtda, Ermənistanın növbəti dəfə Azərbaycana qarşı başladığı növbəti geniş miqyaslı hərbi təxribatı zamanı qəbul edilməsinin böyük siyasi və ümummilli əhəmiyyəti var. Bu onu göstərir ki, idioloji baxışları, siyasi platformaları və proqramları müxtəlif olan partiyalar lazım gəldikdə bütün fikir ayrılıqlarını bir kənara qoyaraq Azərbaycan üçün bir mövqeydən çıxış edəbilirlər". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib.

Millət vəkili bildirib ki, siyasi partiyaların rəhbərləri öz birgə bəyanatlarında Ermənistanın təcavüzkar, işğalçı siyasətini qınayır, beynəlxalq təşkilatları düşmənin mülki əhalinin yaşadıqları kənd və qəsəbələri atəşə tutmaları faktını insanlığa qarşı edilən cinayyət kimi qiymətləndirməyə çağırır. BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələrinə Ermənistan tərəfindən 30 ilə yaxın bir müddətdə məhəl qoymadığını yada salan siyasi partiya rəhbərləri Azərbaycana qarşı tətbiq olunan ikili standartlara son qoyulmasını tələb edirlər: "Siyasi partiyaların qəbul etdikləri bəyanatda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ermənistan -Azərbaycan münaqişəsinin həll edilməsi ilə bağlı müyyənləşdirdiyi və həyata keçirtdiyi siyasəti tam dəstəklənir və status-kvonun dəyişməz qalmasının mümkünsüz olduğunu bildirilir.

Azərbaycanın haqqvə ədalətli mövqeyi şəxsi ambisiyalardan imtina etməyi və milli maraqlar naminə vahid qüvvə kimi çıxış etməyi tələb edir. Tarixi ədalət və haqq uğurunda, torpaqlarımızın düşmən işğalından azad olması uğrunda aparılan müharibə zamanı xalq iqtidar və müxalifət cəbhəsinə bölünməməlidir. 27 sentyabr tarixində Ermənistan tərəfindən başlanan geniş miqyaslı hərbi təxribata qəhrəman ordumuzun əks-hücum əməliyyatı artıq işğal altında olan Azərbaycan torpaqlarının azad olunması uğrunda Böyük Vətən Müharibəsidir.

Xalqımız Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək bu müqəddəs müharibənin tezliklə qələbə ilə başa çatması üçün bütün imkanları səfərbər edərək, şanlı ordumuza hərtərəfli dəsdək nümayiş etdirərək, düşmən üzərində tam və qəti qələbə qazanaraq işğal altında olan torpaqlarımızın işğaldan azad olacağına tam əmindir. Hazırda ölkəmizdə yüksək səviyyədə mövcud olan Xalq, Dövlət, Ordu birliyi və həmrəyliyi gözlədiyimiz qələbəyə zəmanət verir".

## Eldəniz Səlimov: "Paşinyanın "60 dəqiqə" verilişində verdiyi bəyanat onun həyasız biri olmasından irəli gəlir"



"Paşinyanın son günlərdə Azərbaycanın döyüş zəfərlərindən yetərincə narahat olduğu açıq aydın ortadadır. Çünki Azərbaycan başladığı bu haqq savaşında geri addım atan deyil. Bunu anlayan Ermənistan bütün variantlardan istifadə edərək bizi dayandırıb danışıqlar masasına əyləşmək istəyir".

Bunu SİA-ya açıqlamasında millət vəkili Eldəniz Səlimov "Rossiya 1" telekanalının "60 dəqiqə" verlişində Ermənistanın baş naziri Paşinyanın Azərbaycanın hərbi uğurlarından narahat olaraq dünya birliyini təcavüz və təcavüzkarı dayandırmağa çağırmasına münasibət bildirərkən deyib. Onun sözlərinə görə, Paşinyanın "60 dəqiqə" verilişində verdiyi bəyanat onun həyasız biri olmasından irəli gəlir: "Bu gün dünya birliyi artıq bilir ki, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsində təcavüzkar dövlət hansıdır. Paşinyanın verdiyi mənasız bəyanatlar yersiz olduğu qədər heç bir həqiqəti əks etdirmir".

***Gülyana***

ARAŞDIRMA

# Qida təhlükəs(izliy)i:
## Saxta qidalar genefondumuzu dağıdır

## Qida texnoloqu: “Süni kimyəvi qidalar və “fast-fud” yeməklər insanları öldürür”



### Həkim: “Artıq körpə uşaqlarda xərçəng, şəkər, ürək xəstəlikləri baş alıb gedir ki, bu da əsasən, saxta qidalarla bağlıdır”

Ölkəmizdə qida məhsullarının keyfiyyəti ilə bağlı vəziyyət ürəkaçan deyil. Mağazalarda satılan emal qidalarının böyük əksəriyyəti keyfiyyətsiz, saxta və sağlamlıq üçün zərərlidir. Hətta vəziyyət o həddə çatıb ki, təbii hesab etdiyimiz kənd məhsullarında saxtakrlıq baş alıb gedir. Bu saxta qidalar, genetik modifikasiya olunmuş ərzaq məhsulları, həmçinin qida məhsullarına əlavə edilən çoxsaylı ultrakimyəvi qatqılar insanlarımızda ağır xəstəliklər yaradır, milli genefondumuza ciddi zərbə vurur.

### Ekspert: “Vaxtı keçmiş məhsullaırın etiketi dəyişdirilir”

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, təhlükəli və standartlara uyğun olmayan qidalar ciddi problemlər yaradır: “Təhlükənin mövcud olduğu əsas sahələrdən biri də süd və süd məhsullarıdır. Bu məhsulların hazırlanması prosesində standartların pozulması, tərkibinə kimyəvi maddələrin vurulması halları müəyyən edilib. Qida sahəsində problemlərin olması aptek şəbəkələrində özünü göstərir. Qida Təhlükəsizliyi Agentliyi bütün bu problemləri həll etməlidir”.

Ekspertin fikrincə, kənd təsərrüfatı məhsullarına vurulan kimyəvi dərmanlar və kübrələr də ciddi xəstəliklər yaradır: “Biz bilirik ki, kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün müxtəlif gübrələrdən istifadə olunur. Məhsulların təkibindəki bəzi gübrələr insan həyatına mənfi təsir göstərir”.

AİB sədri deyir ki, bu gün təhlükəli qida ilə bağlı ciddi məsələlərdən biri vaxtı keçmiş məhsulların sonrakı taleyidir: “Bizdə olan məlumatlara görə, distribütorlar vaxtı keçmiş məhsulların etiketini dəyişdirib yenidən istehlakçılara təqdim edirlər. Bu məsələnin həlli üçün yollar tapılmalıdır”.

### Qida texnoloqu: “Süni kimyəvi qidalar insanları öldürür”

Qida texnoloqu Ağa Salamov isə hesab edir ki, emal olunmuş qidaların çoxunun tərkibi təbii komponentlərdən deyil, süni kimyəvi komponentlərdən ibarətdir. Sadəcə, həmin məhsulun dadını, rəngini verən qatqılar vurulur, istifadə müddətini artıran maddələr qatılır.

Texnoloq deyir ki, emal olunan qida məhsullarına əlavə olunan kimyəvi qatqı maddələri illər keçdikcə müxtəlif fəsadlar törədir ki, bu da il ərzində 600 milyon insanın zərərli qida istehlak etdikləri üçün müxtəlif xəstəliklərə yoluxmasına və 420 min insanın bu xəstəliklərə tab gətirməyərək ölməsinə səbəb olur.

Ekspertin fikrincə, “fast-fud” qidalar daha təhlükəlidir: “Beyində Oreksin maddəsinin səviyyəsini aşağı salan boş karbohidratlardır. Demək insanlar boş karbohidratlardan da uzaq durmalıdır. Boş karbohidrat dedikdə, təbii ki, çipsilər, rəngli qazlı içkilər, emal olunmuş şəkər və un məmulatları və.s nəzərdə tutulur.

Həmçinin trans yağlar da şiş xəstəliklərinin yaranmasına səbəb olur. Hətta, bədənimizə lazım olan əvəzolunmaz yağ turşularını bizə vermir, əksinə, otaq temperaturunda donmuş halda olan trans yağlar insanlar üçün böyük təhlükə mənbəyidir”.

### Sosioloq: “Bunlar qida deyil, qidanın imitasiyasıdır”

“Sağlam Cəmiyyət” İctimai Birliyinin sədri, sosioloq Lalə Mehralı emal olunmuş qida məhsullarının daha təhlükəli olduğunu deyir: “Bazara ucuz məhsul çıxarmaq üçün emala məruz qalmış ərzaq məhsulunun başına elə oyunlar açılır ki, onlarda qidaya aid heç nə qalmır. Bu gün mağazalarda satılan məhsulların çoxunu qida saymaq olmaz, bunlar sadəcə qidanın imitasiyasıdır. Məsələn, limonadların, şirələrin 99 faizi kimyəvi maddələrdən ibarətdir. Ət və ət məhsullarında da ciddi problemlər var. Mal-qaraya və qoyun-keçiyə ət və südünün çox olması üçün kimyəvi yemlər verilir, hormonal iynələr vurulur. Kobasa-sosiska məmulatıarı barədə isə danışmağa dəyməz, bunlar təhlükəli məhsullardır”

Sosioloqun fikrincə, emal olunmuş qidaların içində ən təhlükəlisi süd məhsulları, xüsusən də yağlardır: “Qida bazarında əhaliyə təklif olunan yağların azı 90 faizi saxtadır. Ən yaxşı halda kanserogen palma yağı və ya spreddir. Bir çox süd məhsulları isə quru süddən, müxtəlif ultraximikatlardan, spredlərdən ibarətdir ki, bunları da qida saymaq olmaz.

Bitki yağları da eyni vəziyyətdədir. Mağazada günəbaxan tumunun kiloqramı 2,5 manata satılır, amma günəbaxan yağının litri 1,7 manatdan başlayır. Bu, nəzəri cəhətdən də mümkün deyildir. Konkret sübutdur ki, bu, günəbaxan yağı deyil, naməlum kimyəvi maddədir. Qarşıdalı yağlarında da eyni vəziyyətdir. Bitki yağlarından yalnız bəzi zeytun yağlarını istisna etmək olar”.

### “Kənd məhsullarında da saxtakarlıq baş alıb gedir”

Kənd təsərrüfatı ərzaq məhsularına gəldikdə, ekspert deyir ki, burada da ciddi probemlər var: “Bütün tərəvəzlərin geni dəyişdirilib. Meyvələrin isə yarısı transgendir. Taxılın xromosomları 15-20-dən 40-50-yə qaldırılıb ki, bu da insanın gen strukturunu dağıdır”.

Ekspert deyir ki, mağazalardakı vəziyyətdən xəbərdar olan insanlar kənddən gətirilən məhsulları almağa üstünlük verməyə başlayıblar, lakin bundan istifadə edən işbazlar kənddən gətirmək adı ilə saxta və süni məhsuları əhaliyə sırıyırlar: “Hətta bu işlə məşğul olan şəbəkə var. Onlar gizli sexlərdə süni nehrə yağları, kimyəvi maddədən və quru süddən süd və süd məhsulları, broyler yumurtlarından torpağa bulaşdırmaqla “kənd yumurtası düzəldir”, bunları bəzi adamlar vasitəsilə köhnə maşınlarda mağazalara göndərir və həyətlərdə təbii kənd məhsulu adı ilə satdırır.

Maraqlıdır ki, ən ucuz halda nehrə yağının kiloqramı 15 manatdan baha başa gəldiyi halda, bu saxta nehrə yağları 6-10 manat arasında satılır. Mağazada paket südlərin litri 1,5 manatdan baha olduğu halda bu südlər 1 manatdan satılır. Klıloqramı 3-4 manata satılan pendir, kəsmik, qaymaq, smetan kimi süd məhsulları tam ximikatdır”.

### Həkim: “Süni qidalar orqanizmdə xərçəng yaradır”

Həkim-konsultant Aynurə Hidayətqızı deyir ki, hazırda insanlar əvvəlkindən fərqli olaraq, daha çox emala məruz qalmış, kimyəvi qatqılarla zənginləşmiş süni qidalar qəbul edirlər: “Müasir dövrdə daha çox orqanizmdə həll olunmayan, yanmayan və ya həll olsa belə zərərli maddələrlə zəngin olan qida qəbul olunur. Orqanizm isə bunları qida kimi tanımır və oradan özünə lazım olan maddələri ala bilmir. Hüceyrələrin funksiyası pozulur, şlaklar yaranır, immunitet zəifləyir və nəticədə xərçəng və s xəstəliklər yaranır”.

Həkim insanlarımızı mümkün qədər mağazalardakı paketlənmiş yerli və xarici qida məhsullarından az istifadə etməyə, ərzaq ehtiyaclarını daha çox kəndlərdən gətirtdikləri məhsullarla ödəməyə çağırıb: “Broyler toyuğu və yumurtasından, həmçinin kolbasa-sosiska məmulatlarından, limonadlardan, enerji içkilərindən istifadəni məsləhət görmürəm. Şəkər, ağ çörək, duzdan istifadəni minimuma endirsinlər. İmmuniteti gücləndirmək, orqanizmi toksinlərdən təmizləmək üçün yabanı bitkilər, çiçək çayları, təbii bal, limon, zəncəfil, sirkə kimi məshullardan gündəlik istifadə. Təbii müalicə metodları tətbiq edərkən, mütləq həkimlə məsləhətləşsinlər”.

Mütəxəssis valideynləri özlərini və sağlamlıqlarına cavabdeh olduqları uşaqlarını qorumağa çağırıb: “Artıq körpə uşaqlarda belə ağlasığmaz xəstəliklər yaranır. Xərçəng, şəkər, ürək xəstəlikləri baş alıb gedir. Valideynlər hər əllərinə keçəni, hər mağazada satılanı uşaqlara yedirtməli deyillər. Uşaqların qidalanmasına nəzarət gücləndirilməlidir. Onları kimyəvi mağaza şirniyyatlarına yox, meyvələrə öyrətsinlər. Əks halda, xəstəliklərlə qarşılaşmaları tezləşəcək”.

***Elçin Bayramlı***

***Mövzunu davam etdirəcəyik***

## Valeri Kolyux: ”Ukrayna Azərbaycan espublikasının ərazi bütövlüyü prinsipini tam dəstəkləyir”



Ukrayna Dağlıq Qarabağda vəziyyəti diqqətlə izləyir və münaqişənin növbəti dəfə genişlənməsinə görə dərin narahatlıq keçirir. Biz Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü prinsipini tam dəstəkləyirik və hadisələrin güc tətbiq etmə ssenarisi üzrə inkişafının qəti əleyhinəyik.

Ukrayna Ali Radasının deputatı, Azərbaycan-Ukrayna Parlamentlərarası Dostluq qrupunun həmsədri Valeri Kolyux bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib. Onun sözlərinə görə, müharibə hər bir insan üçün müsibətdir. Valeri Kolyux bu münaqişədə öz doğmalarını, yaxınlarını itirmiş ailələrə dərin hüznlə başsağlığı verərək deyib: ”Vəziyyətin kəskinləşdiyi şəraitdə münaqişə tərəfləri Cenevrə konvensiyalarına əməl etməli, mülki əhali üçün hər hansı təhdidləri istisna etməli, zərərçəkənlərin sayını minimuma endirməlidirlər”.

## Albaniyanın sabiq prezidenti: Ermənistanın işğalı dayandırılmalıdır



Dağlıq Qarabağda münaqişənin səbəbi Ermənistanın Azərbaycan ərazilərini işğal etməsidir. Bunu Albaniyanın sabiq prezidenti Sali Berişa deyib. O, bu münaqişədə Azərbaycana dəstəyini ifadə edib: ”Artıq neçə gündür ki, Ermənistanla Azərbaycan arasında insan itkiləri ilə müşayiət olunan silahlı münaqişə davam edir. Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq öz ərazi bütövlüyünün və ölkənin illərlə Ermənistan tərəfindən işğal altında saxlanan əraziləri üzərində suverenliyinin təmin olunmasına çalışır”. Sabiq prezident qeyd edib ki, Ermənistan Dağlıq Qarabağı və ətraf yeddi rayonu işğal edib: ”Mən beynəlxalq ictimaiyyəti bu münaqişənin həlli üçün tam ciddiyyətlə tədbirlər görməyə çağırıram. Beynəlxalq hüquq və qanunlara əsasən, Ermənistanın Azərbaycan ərazilərini işğalı dayandırılmalıdır”

# "Azərbaycan dövlətinin öz ərazi bütövlüyünü tezliklə bərpa edəcəyinə inanırıq"

*Milli Məclisin deputatı Pərvin Kərimzadənin yap.org.az-a müsahibəsi:*



***- Pərvin xanım, məlum olduğu kimi, bir neçə gün öncə işğalçı Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribat etdi, yaşayış məntəqələri, dinc sakinlər ağır texnikalardan atəşə tutuldu. Azərbaycan Ordusu bu təxribata cavab olaraq əks-hücum əməliyyatı həyata keçirir. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycana qarşı yeni hücumlar edən işğalçı Ermənistan hökuməti, nəinki bölgədə, Cənubi Qafqazda, eləcə də bütün dünyada sülhə və təhlükəsizliyə ən böyük təhlükə olduğunu bir daha göstərdi. İşğal etdiyi Azərbaycan torpaqlarını azad etmək haqqında BMT Təhlükəsizlik Şurasının, müxtəlif beynəlxalq təşkilatların çoxsaylı qətnamələrinə və çağırışlarına məhəl qoymayan Ermənistan növbəti dəfə - sentyabrın 27-də səhər saatlarından Azərbaycana qarşı hücuma keçdi və yeni ərazilərimizi işğal etmək məqsədilə hərbi obyektləri və mülki əhalini hədəfə aldı.

Müzəffər Azərbaycan Ordusu məkirli düşmənin çoxsaylı təxribatlarına cavab olaraq, cəbhəboyu əks-həmləyə keçib. Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdurrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndləri, Murov zirvəsi, Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənərək, azad edilib. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir. Ordumuzun zəfər yürüşü davam edir.

***- Ermənistan indiyə qədər mövcud status-kvonu qoruyub saxalamağa çalışıb. Bu məsələdə dünya birliyinin işğalçıya qarşı susqun yanaşması nə dərəcədə rol oynayır?***

- Bir milyondan çox insanın hüquqlarını pozan, başqasının torpağına göz dikən işğalçı Ermənistanın saxta demokratiyası, hazırkı hakimiyyətin qurduğu diktatura rejimi öz əsl xislətini göstərməkdə davam edir. İşğalçı Ermənistanın Azərbaycanın tarixi ərazilərini işğal etməsi, sonra isə həmin ərazilərdə erməni əsillilərin qeyri-qanuni məskunlaşdırılması, Azərbaycatın əzəli-əbədi torpaqlarında təxribat törətməsi, dinc sakinlərə atəş açması dünya ictimaiyyətinin gözü önündə baş verir.

Təəssüflər olsun ki, bugünkü reallıqları əks etdirən faktları görməyən, daha doğrusu görmək istəməyən beynəlxalq təşkilatlar işğalçı Ermənistanın başına sığal çəkməklə məşğuldurlar. Faşist ideologiyasına xidmət edən işğalçı Ermənistanın terror əməlləri ilə bağlı beynəlxalq təşkilatlar əməli addımlar atmalı, dünya ictimaiyyəti ermənilərin insanlığa zidd əməllərini pisləməlidirlər.

Dəfələrlə dövlət sərhədimizi pozmağa çalışan ermənilərin qarşısı anında Azərbaycan Ordusu tərəfindən alınıb. Hər zaman ölkəmizin ərazi bütövlüyünü təmin etmək qüdrətinə malik olan Azərbaycan Ordusunun uğurlu əməliyyatları Paşinyan hakimiyyətinin revanş götürmək cəhdini puç edib.

Ermənistanın Azərbaycan ərazilərinə təcavüzü, zaman-zaman xalqımıza qarşı törətdiyi soyqırım və deportasiya faşizm siyasəti yürüdən ölkənin hakimiyyətdə olan şəxslərinin riyakar, ikiüzlü olmasını gizlətmək, hakimiyyətdə qalmaq üçün yeganə çıxış yolu olduğunu bir daha təsdiq etdi.

***- Ermənistanın təcavüzkar və təxribatçı addımlarının beynəlxalq müstəvidə ifşa olunması istiqamətində görülən işləri necə dəyərləndirirsiniz?***

- Əlbəttə ki, bu istiqamətdə zəruri tədbirlər həyata keçiilir. Müvafiq dövlət qurumları ilə yanaşı vətəndaş cəmiyyəti də dünya ictimaiyyətini erməni təxribatları və vandalizmi haqqında mütəmadi olaraq məlumatlandırır. Dünya ictimaiyyəti görür ki, işğal etdiyi Azərbaycan torpaqlarını azad etmək haqqında çoxsaylı qətnamələrinə və çağırışlarını heçə sayan Ermənistan nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada sülhə və təhlükəsizliyə ən böyük təhlükədir.

Ölkə Prezidenti İlham Əliyev bir neçə gün əvvəl BMT Baş Assambleyasının 75-ci sessiyasi çərçivəsində keçirilən tədbirlərdə çıxışlarında Ermənistanın təxribatlarını bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Eyni zamanda, Prezident Ermənistanın məqsədinin yeni təxribatlar törətmək və işğal siyasətini genişləndirmək olması ilə bağlı beynəlxalq ictimaiyyəti xəbərdar etdi. İşğalçı Ermənistan hakimiyyətinin işğal olunmuş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirdiyini, bir milyondan çox azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyətinə saldığını, Xocalı soyqırımını törətdiyini, beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçirdiyini, işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv etdiyini diqqətə çatdıran ölkə Prezidenti İlham Əliyev BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət etdi. Həmçinin işğalçı Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığı beynəlxalq icimaiyyətə çatdırıldı. BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasın keçirildiyi bir dövrdə işğalçı Ermənistan öz məkrli planından əl çəkmədi, təxribatlarını davam etdirdi.

Müstəqil Azərbaycan ərazi bütövlüyünü bərpa etmək, əzəli torpaqlarına sahib çıxmaq fikrindən dönməyəcək. Xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədən, məscidlərimizi, məzarlarımızı dağıdan, mədəni irsimizi öz adlarına çıxarmağa çalışan işğalçı Ermənistan hakimiyyətinin avantürist, məkrli planı baş tutmayacaq, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altındakı bütün kənd və qəsəbələrimizi, şəhərlərimizi düşmən tapdağından azad edəcək. Dövlət-Xalq-Ordu birliyi sayəsində Azərbaycan bayrağı Şuşada dalğalanacaq!

## İqor Korotçenko: Azərbaycan silahlı qüvvələri qüdrətinə görə regionda ən yaxşı ordudur



***Azərbaycan bu gün beynəlxalq hüquq normalarına, özünümüdafiə hüququna müvafiq surətdə hərəkət edir. AZƏRTAC xəbər verir ki, bu fikirləri "Moskva-Bakı" portalına hərbi ekspert, "Nasionalnaya oborona" ("Milli müdafiə") jurnalının baş redaktoru İqor Korotçenko söyləyib.***

O qeyd edib ki, erməni ordusu Azərbaycanın işğal olunmuş ərazilərində hərbi təxribatlar həyata keçirir və Azərbaycan, beynəlxalq hüquq normaları baxımından, cavab əməliyyatları üçün bütün hüquqlara malikdir. İ.Korotçenko deyib: "Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmaması - regionda gələcəkdə böyük müharibəyə əsasdır. Üstəlik, Ermənistan tərəfindən şüurlu hərəkətlərin olmamasını da nəzərə almaq lazımdır. Biz daim Yerevanın hərbi təxribatlarını, qorxunc informasiya yaymaqla məşğul olduğunu görürük. Nikol Paşinyanın səbatsız siyasi vəziyyəti hərbi təxribat yolunu onun üçün salamat qalmağın yeganə variantı edir. Nikol Paşinyan Qarabağ istiqamətində təxribatla əhalinin diqqətini daxili siyasət sahəsində müvəffəqiyyətsizlikdən, ölkədə fəlakətli iqtisadi vəziyyətdən, koronavirusla mübarizədə iflasa uğramadan yayındırmağa çalışır. Bunların hesabını ondan soruşmasınlar deyə o, qəsdən hərbi münaqişə törədir və Azərbaycanı təqsirləndirir. Paşinyanın hərəkətlərinin məntiqi bax budur - bu, siyasi fırıldaqçının və hakimiyyət xatirinə hər cür təxribata, o cümlədən hərbi təxribatlara hazır olan insanın hərəkətlərinin məntiqidir".

İ.Korotçenko xatırladıb: "Bu gün Azərbaycan işğal edilmiş Füzuli və Cəbrayıl rayonlarında özünün 7 kəndini döyüş nəticəsində geri alıb, strateji yüksəklikləri qaytarıb. Bu, nədən xəbər verir? Bu, Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinə görə regionda ən yaxşı ordu olmasını bir daha sübut edir. Azərbaycan ordusu yaxşı motivasiya olunub, axı, onun hərbi qulluqçuları haqq işi uğrunda vuruşurlar, onlar öz Vətənlərinin işğal olunmuş ərazilərini geri qaytarırlar. Bu səbəbdən onlar yüksək vətənpərvərlik ruhu ilə seçilirlər. Erməni hərbi qulluqçuları isə hətta nə uğrunda vuruşduqlarını bilmirlər - onlar özlərinin olmayan ərazilər uğrunda vuruşurlar. Azərbaycan ordusu səriştəlilik səviyyəsinə, Silahlı Qüvvələrin texniki təchizatına, azərbaycanlı komanda kadrlarının səviyyəsinə, generalların, zabitlərin hazırlığına görə yalnız əla qiymətə layiqdir".

## "Azərbaycan xalqı işğal faktı ilə heç zaman barışmayacaq"



***"Azərbaycanın tarixi torpaqlarında yaradılmış Ermənistan yüz ildən artıqdır ki, hər vəchlə öz ərazilərini Azərbaycan torpaqları hesabına genişləndirmək üçün cəhdlər edir. Tarixi Azərbaycan əraziləri olan Dağlıq Qarabağın və ətraf rayonların işğalı da bu çirkin və beynəlxalq hüquqa zidd niyyətlərdən irəli gəlir. Ermənistan Azərbaycan torpaqlarının işğalını davam etdirir". Bunu SİA-ya millət vəkili Cavid Osmanov deyib.***

Deputatın sözlərinə görə, Azərbaycan xalqı işğal faktı ilə heç zaman barışmayıb və barışmayacaq: "Ermənistanın mənfur işğalçılıq siyasəti nəticəsində Azərbaycanda bir milyondan çox insan öz doğma torpaqlarında yaşamaq hüququndan məhrum edilib. Otuz ilə yaxındır davam edən bu vəziyyətdə Ermənistan nə beynəlxalq hüququ, nə də BMT-nin qətnamələrinin tələblərini saya salır, öz əhalisinin belə acınacaqlı durumda yaşamasını nəzərə almır.

Bölgədə sabitliyə ciddi təhlükə olan bu ölkə Azərbaycanın illərdir davam edən xəbərdarlıqlarından nəticə çıxarmadığı, məsələnin danışıqlarla həllinə hər vəchlə mane olduğu, eləcə də hərbi təxribatlarını davam etdirdiyi üçün ordumuz işğalçıya cavab vermək hüququndan istifadə edir. Dünyanın bir sıra ölkələri və beynəlxalq qurumlar da dəfələrlə bəyan edib ki, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalı, ilk növbədə işğalçı hərbi qüvvələr torpaqlarımızdan çıxarılmalı, dinc insanlar, məcburi köçkünlər öz yurdlarına qayıtmalıdırlar. Hazırda ölkəmiz müharibə şəraitindədir. Ermənistan Azərbaycan ordusunun cəbhə zonasında yerləşən mövqelərini, yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif artilleriya qurğularından intensiv atəşə tutmaqla növbəti dəfə qeyri-humanist mahiyyətini, insanlığa qarşı olduğunu sübut edir. Mülki obyektlərin və əhalinin vurulması Ermənistanın Azərbaycana qarşı dünya tarixində görünməmiş üsullardan istifadə etdiyini bir daha ortaya qoyur".

## Erməni ordusunda komandiri "dezertir" əvəz etdi



***Madagizdə yerləşən 6-cı dağatıcı alayın komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrini artilleriya atəşinə məruz qalıb və ağır yaralı olaraq sıradan çıxarılıblar. SİA-nın məlumatına görə, qeyd edilən hərbi hissə komandirinin yerinə 10-cu dağatıcı diviziyanın komandir müavini Gevorg Mangalaryan təyin edilib.***

Qeyd edək ki, G.Mangalaryan 2016-cı il aprel döyüşləri zamanı döyüş meydanını özbaşına tərk etdiyi üçün ciddi şəkildə cəzalandırılıb. Lakin sonradan yüksək rütbəli qohumlarının müdaxiləsi nəticəsində yenidən bəraət qazanıb və müvafiq vəzifəyə təyin edilib. Məlumdur ki, Mangalaryan komandanlığın etimadını qazanmayıb, əsgərlər və kiçik zabitlər arasında nüfuzu yoxdur.

# Məktəblərdə hərbi hazırlıq dərsləri: haradan və nədən başlamalı?

***“Ali və orta məktəblərdə hərbi dərslər bərpa olunmalıdır”. Bunu Milli Məclisin 30 sentyabrda keçirilən iclasında deputat Fazil Mustafa deyib. Bildirib ki, səfərbərliklə bağlı qanunvericiliyi dəyişiklik edilməlidir: “Tarixi mənbələr var ki, Bakının işğaldan azad olunması üçün xüsusi səfərbərlik elan edilmişdi. Zəngəzur qiyamını yatırmaq üçün də səfərbərlik elan edilib”. Millət vəkili, həmçinin bu günkü şəraitdə ali və orta məktəblərdə hərbi dərslərin bərpa olunmasını da bildirib: “Biz orta və ali məktəblərdə hərbi dərsləri ləğv etməyimizin fəsadını yaşadıq. Müharibə şəraitinin tələbi üzrə biz təcili orta və ali məktəblərdə hərbi dərslərin bərpa olunmasını təmin etməliyik. Bu gün çox sayda insanlarımız adi silahla davranış qaydalarını bilmir. Biz eyni zamanda səfərbərliklə bağlı qanunvericiliyi də dəyişməliyik. Bir ailədə tək uşağı, yaxud bir ailənin bütün uşaqlarını səfərbərliyə cəlb edirlər. Əlbəttə, bu, vətənlə, torpaqla bağlı məsələdir.***

Amma sosial müavinətlə bağlı xüsusi müddəalar olmalıdır. Bir uşağı əsgərə gedən ailələri qanunvericiliklə müəyyən müavinətlərlə təmin etməliyik. Arxa cəbhədə kimsənə bir sıxıntısı qalanda bu, həmin insanın döyüş ruhuna da təsir edəcək”.

## Bəs “Çağırışa qədər ki hazırlıq” fənninin tədrisi necə olmalıdır

Son günlər kütləvi informasiya vasitələrində bir sıra millət vəkilləri, hərbi ekspertlər və ictimai təşkilatların nümayəndələri tərəfindən orta məktəblərdə hərbi hazırlıq dərslərinin tədrisinin səviyyəsinin yüksəldilməsi, məktəblərin əyani vəsaitlərlə təchiz edilməsinə dair fikirlər səslənməkdədir. Ekspertlərin fikrincə, ölkənin müharibə şəraitində olması bu fənnin tədrisini zəruri edir. Bu baxımdan məktəblərdə sözügedən fənnin tədrisinə diqqət artırılmalı, hərbi kabinetlər yaradılmalı, təlim silahları və digər zəruri əşyalarla təchiz edilməli, ehtiyatda olan zabitlər bu fənnin tədrisinə cəlb olunmalıdırlar.

Açıqlamalar gözəldir və ictimaiyyət tərəfindən də dəstəklənir. Təəssüf ki, aralarında yüksək rütbəli zabitlər də olmaqla, qeyd edilən fikirləri səsləndirən şəxslərin çoxunun nə orta məktəblərdə bu fənnin tədrisindən, nə də tədris edilən dərslikdən xəbərləri yoxdur. Bəs “Çağırışa qədər ki hazırlıq” fənninin tədrisində real vəziyyət necədir və dərsliklərin yenidən yazılmasına ehtiyac olacaqmı?

İlk öncə dünənə kimi, orta məktəblərin 10-cu və 11-ci siniflərində tədris edilən “Çağırışa qədər ki hazırlıq” dərsliklərindən başlayaq. Həmsöhbət olduğumuz müəllim və ekspertlərin də yaralı yeri, başqa sözlə, problemin mənbəyi məhz elə bu dərsliklərdir. Onu da vurğulamaq istərdim ki, hərbi sahədə olanlarla söhbətlərdən də gəldiyimiz birinci qənaət ondan ibarət oldu ki, dərslikdəki bölmələr üzrə müəyyən olunan mövzular demək olar ki, orta məktəb səviyyəsində yazılmayıb, məzmun anlaşılan səviyyədə deyil. Hətta həmsöhbət olduğumuz, “Çağırışa qədər ki hazırlıq” fənnini tədris edən ehtiyatda olan zabitlər də şagirdlərin dərslikdəki mövzuları mənimsəməkdə çətinlik çəkdiklərini deyirlər. Eyni zamanda müəllimlər, həm dərslik, həm də müəllim üçün vəsaitin anlaşılmayan terminlərlə “bol olmasından” gileylənirlər. Daha dəqiq desək, məzmun baxımından çox çətin anlaşılan dərslikdəki mövzular sanki orta məktəb şagirdlərinə deyil, hərbi hissədə zabitlərə keçirilən movzuları xatırladır.

Bir məqamı da vurğulamaq istərdim ki, özüm də ali məktəbdə oxuyarkən hərbi dərslə keçmişəm. O vaxt nəşr olunan dərsliklər mütəxəssislərin hesab etdikləri kimidir.

Belə ki, mütəxəssislərini sözlərinə görə, dərsliyin “Taktiki hazırlıq” bölməsində 11-ci sinif şagirdlərinə taqım hazırlığı səviyyəsində mövzuların salınması məntiqə uyğun deyil. Hansı ki, keçmiş SSRİ dövründə, eləcə də müstəqilliyin ilk illərindən 2014-cü ilə qədər yazılan dərsliklərdə “Taktiki hazırlıq” bölməsi yalnız manqa hazırlığı ilə kifayətlənib. “Silahlar və atəş hazırlığı” bölməsində isə əvvəlki dərsliklərdə yalnız avtomat və əl pulemyotu, bu silahların təyinatı və quruluşu, taktiki-texniki xüsusiyyətləri, natamam sökülüb yığılma qaydaları haqqında məlumat verildiyi halda, hazırkı dərslikdə əlavə olaraq tank pulemyotları barədə mövzular yer alır. Bundan başqa, əvvəlki dərsliklərdə mina hazırlığı mövzusunda tank və piyada əleyhinə minalar haqqında qısa və yığcam məlumat verilsə də, hazırkı dərslikdə şagird səviyyəsində anlaşılmayan, ordunun mühəndis-istehkam xidmətinin mütəxəssislərinin bilməli olduqları bütün minalar öz əksini tapıb. Digər maraqlı məqam isə son zamanlar aktuallaşan kimyəvi, bioloji, bakteroloji və nüvə təhlükəsizliyi, pandemiyalar və epidemiyalar dövründə davranış mövzusudur. 2011-2014-cü illərdə Həbib Ocaqov və Rövşən Qasımovun hazırladığı 10 və 11-ci siniflər üçün “Gənclərin Çağırışa qədər ki Hazırlığı” dərsliyin “Təhlükəsizlik və Fövqəladə Hallarda İnsanların Mühafizəsi” bölməsində bütün bunlar nəzərə alınsa da yeni yeni dərsliklərdə bu mövzulara diqqət yetirilmir.

## Dəsrlər necə keçirilir?

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Gənclərin Çağırışaqədərki Hazırlığı və Fiziki Tərbiyə fənni üzrə metodisti Rövşən Qasımovun sözlərinə görə hazırda məktəblərin əyani vəsaitlərlə təchiz edilməsi istiqamətində işlərin aparıldığını da bildirib. Bakı şəhəri üzrə Təhsil İdarəsinin 308 ümumtəhsil məktəbinin 100-ə yaxınında “elektron silah” layihəsinin həyata keçirildiyini deyən R. Qasımovun sözlərinə görə, bu layihə çərçivəsində məktəblər atış simulyatorları ilə təchiz olunub: “Bu da dərslərin inovativ üsullarla keçirilməsinə imkan verir. Şagirdlər hər tədris ilində proqram materialına uygun olaraq elektron silahdan atəş açır, atışın əsas və qaydalarını öyrənir, həmin silah komplektinə daxil olan digər AK-74 avtomatını atamam sökülüb yığırlar. Elektron silah layihəsi olmayan digər məktəblər isə elektron silah layihəsi olan məktəblərlə əməkdaşlıq edirlər”.



Bir sıra millət vəkilləri, hərbi ekspertlər və ictimai təşkilatların nümayəndələri tərəfindən orta məktəblərdə hərbi hazırlıq dərslərinin tədrisinin səviyyəsinin yüksəldilməsi, məktəblərin əyani vəsaitlərlə təchiz edilməsinə dair fikirlərinə görə ölkənin müharibə şəraitində olması bu fənnin tədrisini zəruri edirlər. Bu baxımdan məktəblərdə sözügedən fənnin tədrisinə diqqət artırılmalı, hərbi kabinetlər yaradılmalı, təlim silahları və digər zəruri əşyalarla təchiz edilməli, ehtiyatda olan zabitlər bu fənnin tədrisinə cəlb olunmalıdırlar.

Göründüyü kimi, açıqlamalar deyilir, ictimaiyyət tərəfindən də dəstəklənir. Təəssüf ki, aralarında yüksək rütbəli zabitlər də olmaqla, qeyd edilən fikirləri səsləndirən şəxslərin çoxunun nə orta məktəblərdə bu fənnin tədrisindən, nə də tədris edilən dərslikdən xəbərləri yoxdur.

Özü də torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb etdiyi kimi, hərbi dərslərin keçirilməsinə və bu günün tələblərini təmin edən dərsliklərin hazırlarması nəinki lazımdır, vacibdir. Bu baxımdan orta məktəblərdə tədris olunan “Gənclərin çağırışa qədər ki hazırlığı” fənni mühüm rol oynayır. Bu fənn öz məzmunu etibarı ilə şagirdləri Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatlandırır, hərbi nizamnamə qaydalarını mənimsədir, ordu həyatı ilə tanış edir, hərbi xidmətə fiziki və mənəvi-psixoloji cəhətdən hazırlayır. Şagirdlərdə orduda xidmətin müqəddəs borc və şərəf işi olmasına inam yaradaraq, vətənpərvərlik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətləri inkişaf etdirir. Bəli, bu gün təcavüzkar faşist xislətli ölkə olan Ermənistanın işğalçılığı nəticəsində 30 ilə yaxın torpaqlarımızın bu gün ölkə Prezidentimiz, Ali Baş Komandanımızın apardığı uğurlu siyasəti nəticəsində Güclü Dövlət və Güclü Ordumuz nasisiti yerində otuzdurursa, və ardıcıl olaraq qələbələr qələbələr ardınca gəlirsə, deməli biz bütün çətinliklərin öhdəsindən gəlməyə qadirik.

## Elman Məmmədov: “Gənclərin hərbə hazırlanması ən vacib məsələlərdən biridir”

Millət vəkili Elman Məmmədov bildirib ki, məktəblərdə hərbi dərslərin keçirilməsi fikrinin tərəfdarıyam: “Məncə bu, hamının tələb etdiyi, gözlədiyi bir şeydir. Azərbaycan müharibə vəziyyətində olan bir ölkədir. Azərbaycan gənci orta məktəbdən hərbi sirləri öyrənməyə başlamalıdır. Hərbə meyilli olmalıdır. Ona hərbə hazırlamaq, silah-sursatdan istifadəni öyrətmək olduqca vacibdir. Bu baxımdan hesab edirəm ki, orta məktəblərdə hərbi dərslərin keçirilməsi bərpa edilməli və gücləndirilməlidir”.

Millət vəkilinin sözlərinə görə orta məktəblərin böyük əksəriyyətində hərbi hazırlıq dərsləri sadəcə sıraya düzülüb addımlamaqdan, sağa sola dönməyi öyrətməkdən ibarət olur. Bu şagirdlər silahları ancaq şəkillərdə görürlər, ən yaxşı halda məktəbə II Dünya Müharibəsindən qalmış köhnə əlehiqazlar verilir ki, əyani vəsait olaraq şagirdlər istifadə etsinlər.

Təhsil eksperti Elçin Əfəndinin sözlərinə görə isə, müharibə şəraitində yaşayan ölkədə hərbi dərslər mütəmadi olaraq keçirilməlidir, hətta buna ibtidai siniflərdən başlamaq lazımdır: “Ermənistanda ibtidai siniflərdə uşaqlara Azərbaycanfobiya təbliğ edilir, bizdə isə humanizm. Bizim torpaqlarımız işğal altındadır. Çox yaxşı olardı ki aşağı siniflərdən hərbi hazırlıq dərsləri ilkin hərbi məlumatlar öyrədilsn. Düzdür, həyat bilgisi dərsində müəyyən bilgilər verilir. Lakin bu azdır. Hesab edirəm ki, təhsil Nazirliyi bunu nəzərə almalıdır”.

Millət vəkili Qənirə Paşayeva da hərbi dərslərin keçirilməsini vacib sayıb. Bildirib ki, bu, cəbhə bölgəsində yaşayan insanlarımızın da xahişidir.

Millət vəkillərinin fikirlərinə görə, əyani şəkildə yaranan təəssürat daha effektlidir. Çünki onlar praktiki tanışlıq imkanı əldə edir: “Orta məktəbi bitirən gəncin ilk məqsədi ali məktəbə daxil olmaqdırsa, digər məramı da sabah Vətəni əsgəri xidmətlə qoruması olmalıdır. Hərbi dərslər zamanı şagirdlərin hərbi hissələrə aparılması və onların əsgərlərlə söhbətlər etməsi yeniyetmələrin formalaşmasında öz sözünü deyir. Məktəblərdə ibtidai hərbi hazırlıq fənni tədris olunur. Həmin fənni tədris edən ya ehtiyatda olan zabit olur, ya da sözügedən sahə üzrə müəllim. Bu fənnin əsas məqsədi məktəbdə şagirdlərə silahı sökməyi, yığmağı öyrətməkdir. Həmçinin strateji planların, qorunmağın necə olduğunu öyrətməkdir. Amma bu dərslərin sayı artırılmalı, şagirdlərin hərbi hazırlıq qabiliyyəti yüksək səviyyəyə çatdırılmalıdır. Gənc nəslə ilkin hərbi bilik və bacarıqların aşılanması, onlarda orduya, hərb sənətinə marağın artırılması üçün hərbi dərslərin bərpası arzu ediləndir”.

***Rəfiqə HÜSEYNOVA***

# Erməni həyasızlığının pik həddi: Gürcüstanı niyə hədəfə alıblar?

**Ermənilərin "Marşal Baqramyan" adlı alayları həm Abxaziyada, həm də Cənubi Osetiyada gürcü əhalisinə qarşı xüsusi amansızlığı və qətliamları, onların doğma yurd-yuvalarından didərgin salınmaları ilə seçilib**



Son vaxtlar Ermənistan mediası və sosial şəbəkə seqmentləri Gürcüstanı "qorxaqlıqda", "xəyanətdə" ittiham edərək, bu ölkəyə qarşı geniş miqyasda informasiya müharibəsi elan ediblər. Erməniləri narahat edən məsələ hələ iyul ayında - Tovuzda baş verən silahlı təxribatları zamanı gürcülərin öz ölkə ərazilərindən digər ölkələrdən göndərilmiş silah-sursatın keçirilməsinə izn verməməsindən başlayıb. Məhz həmin andan başlayaraq, artıq indi - Qarabağda işğal altındakı ərazilərimizin azad olunduğu bir zamanda da erməni həyasızlığı özünü tam çılpaq şəkildə sergiləməkdədir. Bəli, məhz erməni həyasızlığı!

**Erməniləri narahat edən məsələlərdən növbətisi Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvilinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat səsləndirməsidir**

Məsələ ondadır ki, bugünlərdə ermənilərin Armenianreport informasiya şəbəkəsində "Ənənəvi gürcü süfrəsi: qorxaqlıq və xəyanət" sərlövhəli yazı dərc edilib. Həmin yazıda Gürcüstan tərəfi necə deyərlər, yersiz ittihamlara məruz qalıb, açıq-aşkar milli heysiyyata toxunulub və təhqirə məruz qalıb. Erməniləri narahat edən məsələlərdən növbətisi Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvilinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat səsləndirməsidir. Xatırladaq ki, "Mənim mövqem kifayət qədər aydındır, o dövlət bütövlüyü prinsipinə əsaslanıb, yəni Dağlıq Qarabağ Azərbaycan Respublikasının suveren ərazisidir. Bu regiondan qovulan hər kəs evinə dönməli və hüquqlarının qorunduğu əmin-amanlıq içində yaşamalıdır", bəyanatını səsləndirən Gürcüstanın sabiq prezidentinin bu sözlərindən qeyzə gələn və aqressivləşən ermənilər, hətta hazırkı Gürcüstan hökumətinin onun hakimiyyətindəki zamandan fərqlənmədiyini yazırlar.

"Bütün hakimiyyətlərdə Gürcüstan Ermənistana düşmən münasibəti nümayiş etdirib", deyə erməni həyasızlığının pik nöqtəsi də həmin yazıda özünü kifayət qədər əks etdirir. Saakaşvilinin Gürcüstanın üç Qafqaz respublikasının xalqları ilə dostluq münasibəti saxlamaq marağında olması fikrini isə ermənilər "yaltaqlıq" kimi qələmə veriblər.

O da maraqlıdır ki, uzun illərdir Gürcüstanın Cavaxetiya bölgəsində yaşayan ermənilər indi həmin ərazini özünküləşdirərək, "cavax" adlandırır, hətta bir az da irəliyə gedərək, "Kiçik Ermənistan" adlandırırlar. Bu da azmış kimi, Saakaşvilini hakimiyyətdə olduğu vaxtlarda Bakının mövqeyindən çıxış etməklə Cavaxetiya ermənilərinə təzyiq etdiyini də iddia edirlər.

**"Cavax" erməniləri Gürcüstan-Ermənistan sərhəd-keçid məntəqəsindən qeyri-qanuni keçməklə, Livan və Suriyadan Qarabağa toplaşmış ASALA terror qruplarına qoşulmaq istəyiblər**

Lakin daha bir məqama diqqət yetirək. Ermənilər mövcud gürcü hakimiyyətini hədəfə alaraq, indi də bu iqtidara qarşı qarayaxma kampaniyası aparırlar. Misal üçün, Ermənistanın sentyabrın 27-dən başlayaraq, Qarabağda silahlı təxribatının ardınca Azərbaycan Ordusunun onlara verdiyi layiqli, sarsıdıcı cavabından sonra, məhz həmin "cavax" erməniləri Gürcüstan-Ermənistan sərhəd-keçid məntəqəsinə yığışıb qeyri-qanuni olaraq sərhədi keçməyə, Qarabağa yollanmağa, Livan və Suriyadan toplaşmış ASALA-ya aid terror qruplarına qoşulmağa cəhdlər göstəriblər. Söz yox ki, Gürcüstan sərhədçiləri onların qarşısını alıb və qeyri-qanuni keçidlərinə imkan verməyib. Bu isə necə deyərlər, ermənilərin xətirlərinə dəyib və gürcülərin onlara "düşmən münasibəti" sərgilədiklərini iddia etməyə başlayıblar.

Yeri gəlmişkən, bu, həmin "cavax" ermənilərdirlər ki, bir müddət əvvəl öz ərazilərində Xocalıda və s. ərazilərimizdə azərbaycanlıları qətlə yetirən, əlləri qana bulaşan Mixail Avaqyana büst ucaldıblar. Ancaq...

**Yaratdıqları səs-küylər həqiqətən də erməni xislətinin nə qədər həyasız, mənəviyyatsız və insanlığa yaraşmayan biri olduğunu kifayət qədər isbatlamaqdadır**

Ancaq nədənsə ermənilər Gürcüstan torpaqlarının işğalında separatçı abxaz və cənubi osetin güclərinin tərkibində döyüşüblər. Üstəlik, ermənilərin "Marşal Baqramyan" adlı alayları həm Abxaziyada, həm də Cənubi Osetiyada gürcü əhalisinə qarşı xüsusi amansızlığı və qətliamları, onların doğma yurd-yuvalarından didərgin salınmaları ilə seçilib. Söz yox ki, Gürcüstan dövləti bu faktları unutmayıb və unutmayacaq da. Belə olan halda indi onların Gürcüstana qarşı qaldırdıqları səs-küyləri, hay-harayları, həqiqətən də, erməni xislətinin nə qədər həyasız, mənəviyyatsız və insanlığa yaraşmayan biri olduğunu kifayət qədər isbatlamaqdadır.

**Ermənilər dəfələrlə Keşikçidağ məsələsində təxribatlara əl atıblar, xalqlarımız arasına nifaq salmağa çalışıblar**

Daha bir misalı xatırlatmaq olar. Bu gün Azərbaycanla Gürcüstan arasında olan münasibətlərin yüksək səviyyədə qurulmasından narahat olan ermənilər dəfələrlə Keşikçidağ məsələsində təxribatlara əl atıblar, xalqlarımız arasına nifaq salmağa çalışıblar. Lakin Gürcüstan hökumətinin hadisələri doğru qiymətləndirməsi və dürüst nəticə çıxarmasından sonra təxribata yol verənlər müəyyənləşdi, onların içindən çox sayda ermənilər çıxdı. Bu fakt da sübut edir ki, indiki halda Gürcüstanı qorxaqlıqda, xəyanətdə ittiham edən erməni tərəfi, əslində, özünə məxsus olan bu meyarları daim başqalarının üzərinə atmağa cəhdlər göstərib. Bu gün haqlı mübarizəsi ilə işğalçı Ermənistana yerini göstərən, torpaqlarını işğaldan azad edən Azərbaycan Ordusu əldə etdiyi və edəcəyi qələbələri ilə, əslində, ermənilərin bu sindromlarını da kökündən yox edəcək.

*Rövşən RƏSULOV*

## "Paşinyan sərsəm bəyanatı ilə danışıqlar prosesini məhv etdi"



"Sentyabrın 29-dan 30-na keçən gecə BMT Təhlükəsizlik Şurası Ermənistan və Azərbaycan arasındakı genişmiqyaslı hərbi qarşıdurma ilə bağlı qapalı müzakirələr keçirib. Hazırda Təhlükəsizlik Şurasına sədrlik edən Nigeriyanın bu qurumdakı daimi nümayəndəsi Əbdu Abarri bildirib ki, TŞ-nın üzvləri Ermənistanı və Azərbaycanı dərhal atəşi dayandırmağa və danışıqlara qayıtmağa çağırıb". Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mayis Səfərli deyib.

"Yeri gəlmişkən, BMT-nin Baş katibi də bu günlərdə hərbi əməliyyatlara son qoymaq və masa arxasına dönmək çağırışı ilə tərəflərə müraciət etmişdir. Açığını deyim ki, bu, ədalətsizliyin, ikili standartların bariz nümunəsidir. Axı, dünyada sülhə, əmin-amanlığa məsul olan bu nüfuzlu təşkilat necə olur ki, işğalçıya və işğala məruz qalana eyni cür yanaşır? Heç olmasa, həmin iclasda Ermənistanın nümayəndəsinə bir sual edərdilər ki, niyə ölkəsi bu münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının hələ 1992-ci ildə qəbul etdiyi dörd qətnaməni yerinə yetirmir?

Digər tərəfdən, "Qarabağ Ermənistandır" deyən təcavüzkar dövlətin başçısı ilə nədən danışmaq olar? O, bu bəyanatı ilə beynəlxalq hüquqa meydan oxudu, danışıqlar prosesini məhv etdi. Ermənistanın son otuz ildəki bütün addımları bölgədə geosiyasi vəziyyəti gərginləşdirməyə, münaqişənin alovlanmasına yönəlib. Nəyə görə, BMT TŞ terrorçu, cinayətkar dövlət olan Ermənistana cəza tədbirləri, sanksiyalar tətbiq etmir? Bu qurum görəsən Ermənistanın onun qəbul etdiyi qətnamələri icra etməməsi, ayaqları altına atıb tapdalamasından xəcalət çəkirmi? Dünya siyasətini müəyyənləşdirməyə, yönəltməyə çalışan beşlik belə ikiüzlülüklə, haqsızlıqla dünyamızı uçuruma apardığının fərqindədirmi?"-deyə, partiya sədri fikrini tamamlayıb.

*Ceyhun Rasimoğlu*



**Təhmasib Novruzov**

## Hər kəsdən hesab soruşulacaq

***Kimsə məni qınamasın. Nəcəf bəy Vəzirovun məşhur "Yağışdan çıxdıq, yağmura düşdük" dramı əsasında hazırlanmış tamaşada, hay əsilli obraz olan Qıdı Kirvənin bir məlum sözü ilə başlamaq istəyirəm bu yazımı. Çünki hayların özlərini öz dilləri ilə "tərif" eləməkdən yaxşısı yoxdur. Qıdı Kirvə deyirdi: "Ara, bu gada dalidi, nadi?..".***

İndi qıdı kirlilərin başqanı olan Nikol gədanın danışıqlarını, müsahibələrini, çıxışlarını hər dinləyəndə gəlir babası Qıdının sözləri düşür yadıma. Hər nə zibil olsalar da, bu haylar dünya güclərinin əli ilə gəlib düşüblər Qafqaza və olublar bizimlə qonşu. Düşmən də olsaq, Qafqaz xalqlarının nümayəndələridir və onları eşidənlər arasında bizim bu bölgə haqqında da bir fikrə gəlirlər. Bir gün yekələnib çıxdı Azərbaycan Prezidenti ilə debata, bütün dünyanın gözləri qarşısında təzək olub yapışdı erməni kilsəsinin divarına. Sonra özünü ağıllı hesab eləyib oturdu BBC televiziyasının müxbirinin qarşısında. Elə bildi ki, Soros əmisinin qorxusundan onu sıxışdırmayacaqlar və istədiklərinin hamısını dünyanın gözünə soxacaq. Gözünə döndüyüm BBC-nin jurnalisti bu dəfə onu palçıq eləyib (Onlarda təzək olmur axı, ona görə gil palçıq elədi. Amma bizlərdən soruşsaydı Nikolu təzək eləmək yolunu ona izah edərdik) çırpdı Londonun köhnəlmiş divarlarına. Bu dəfə kiminsə onu təzək, palçıq eləyəcəyindən qorxub, ora-bura getmədi. Öz haylarını hayladı başına və başladı gic-gic danışmağa. Azərbaycan Prezidenti neçə dəfə beynəlxalq tribunlardan səsləndi ki, bu gədəni dayandırın, palçıqlığının qisasını almaqdan ötrü millətini verib qabağa dava çıxarmaq istəyir. Kişi kimi meydana təkbaşına çıxmaqdan qorxduğuna görə isə təxribatlarla xaricdən özünə dəstəkçilər toplamaq fikrinə düşüb!

Dünyanın da ki, gözləri kor, qulaqları kar olmuşdu elə bil. Səslərini çıxarmadılar. Yenə təxribat eləyib, bizim kəndlərimizi top atəşinə tutanda, artıq bizim Ali Baş Komandan onu yerində oturtmaq üçün gücünün kiçik bir hissəsin işə saldı. Bu kiçik qüvvəyə cavab verə bilməycəyini görəndə yenə başladı gicləməyə. Böyük qağası bildiyi Rusiyanın ən nüfuzlu telekanalından haray saldı ki, bizimlə Türkiyə savaşır. Ardınca dedi ki, Azərbaycan tərəfdə Suriyadan (Özü də Suriyadan a...) gətirilmiş terrorçular vuruşur. Babası Nikol kimi faşist ideologiyasının daşıyıcısı olan nəvə Nikolun bu dediklərini də beşcə dəqiqədə Azərbaycan Prezidenti yerlə yeksan elədi. İndi

gözlüyürük, görək bu gədənin nəvəsi olan gəda sonra hansı formada gicləyəcək. Bu gedişlə onsuz da az ömrü qalan (Əminəm ki, haylar özləri onu daş-qalaq edib cəhənnəmə - babasının yanına yollayacaqlar!) bu gədadan hələ dünyanı güldürrən çox giclemələr eşidəcəyik.

Burası belə. Keçək ikinci məsələyə. Mən nə qədər fikirləşirəm, heç cür cavab tapa bilmirəmki, iyirmi altı ildi gözü kor, qulağı kar, dili lal olan dünyanın necə oldu ki, hayların quyruğunu qapı dalına qoyub sıxan kimi gözləri də açıldı, qulaqları da, dilləri də? Bəlkə biz başqa planetdən gəlmişik, hayların halına acıyırlar, bizə gələndə acıma duyğuları ölür? Düzdü, bizim diplomatiyamız sayəsində ermənini dəstəkləyən də yoxdur. Amma başlayıblar bizim liderimizə yalvarmağa ki, amandı, hərbi əməliyyatı dayandırın, keçin danışıq masasının arxasına. Qardaş Türkiyənin Cumhur başqanı demişkən, otuz ildir danışırıq, hansı sonucu olub ki, yenə oturaq danışığa?

Burası da belə. Qaldı daha bir vacib məsələ. O da ibarətdir ondan ki, Azərbaycanın bu haqq və ədalət savaşına həm Azərbaycanın, həm də Türkiyənin bütün qüvvələri, o cümlədən siyasi baxışlarından asılı olmayaraq bütün müxalif partiyaları dəstək verir və Azərbaycanın Ali Baş Komandanının yanında olduğunu bəyan edir. Di gəl iki gülməşəkər siyasi təşkilat - AXCP və Müsavat bu dəstəkdən imtina edir. Vallah, məni qınamayın, xeyli yaşım var, keşməçeşli bir həyat yaşamışam, çox yaramazlıqlar, xəyanətlər görmüşəm. Amma beləsini yatsam yuxumda da görə bilməzdim. Bilirik ki, Nikolla bunların maliyyə mənbələri eynidir. O da, bunlar da Soros əmilərindən pul alıb düşüblər ortalığa. Amma pul nə yaman şirin şey oldu ki, mənsub olduqları bu boyda millətin mənafelərini zatı-kökü olmayan beş-on dığaya satdılar? Bunu ağlım heç ala bilmir, ağlı ala bilən biri varsa bu məmləkətdə, mənə də bir az aldığı ağıldan pay göndərsin.

Xülasə, savaş təkcə cəbhədə getmir, həm də informasiya, siyasət, diplomatiya meydanlarında gedir. Siyasətdə ən böyük məğlubiyyətə isə həmin iki partiya tuş etdi özünü. Yəqin onlarla da savaşma zamanı gələcək. Hələ haylarla, yeni Sorosun xaricdəki dostları ilə məsələmizi həll edək, sonra bu millət Sorosun içimizdəki dostlarından da hesab soruşulucaq. Həm də hökmən soruşulacaq!..

# Azərbaycan-Ermənistan: hansı ordu güclüdür?

2 ölkə arasında hərbi-iqtisadi imkanların müqayisəli analizi nəyi göstərir?

Azərbaycan torpaqlarının 20%-ni işğal etmiş Ermənistan keçən 30 il ərzində sülh prosesini açıq şəkildə sabotaj etdiyindən və bu səbəbdən problemin danışıqlar yolu ilə həlli üçün bütün imkanlar itirildiyindən Azərbaycan öz işğal olunmuş ərazilərini hərbi yolla azad etmək üçün əməliyyatlara başladı. İlk günlərdən işğalçı orduya və Qarabağda yerləşdirilən terrorçu dəstələrə sarsıdıcı zərbələr vuran, düşmənin xeyli canlı qüvvəsini, hərbi infrastrukturunu, texnikasını məhv edən Azərbaycan Ordusu qısa müddətdə 10-dan artıq yaşayış məntəqəsini və xeyli strateji yüksəkliyi geri aldı. Özünü itirmiş Ermənistan rəhbərliyi və qorxuya düşmüş erməni ictimaiyyəti situasiyadan çıxmaq üçün yollar axtarır. Lakin artıq gecdir. İndi son sözü silahlar deyir...

Bu yazıda ölkələrin iqtisadi-maliyyə imkanları, canlı qüvvə resursları, silahlı qüvvələrin maddi-texniki təchizatı, ordudakı mənəvi-psixoloji mühiti ilə bağlı kiçik bir müqayisə aparacağıq. Lap başdan başlayaq...

### İqtisadi-maliyyə imkanlarının qarşıdurması nə vəd edir?

Hər hansı bir müharibəni apara bilmək üçün ilk növbədə güclü maliyyə imkanları, güclü iqtisadi potensial lazım gəlir. Azərbaycan bu sahədə Ermənistandan azı 5 dəfə güclü vəziyyətdədir.

Azərbaycanda illik ümumdaxili məhsul 80 milyard, Ermənistanda isə 15 milyrd dollar təşkil edir. Azərbaycanın dövlət büdcəsi 25 milyard, Ermənistanın dövlət büdcəsi 3,5 milyard dollar təşkil edir. Hərbi büdcələrdə isə müvafiq olaraq, 3 milyarda qarşı cəmi 650 mln dollarlıq hərbi büdcə dayanır.

Ermənistanın ümui dövlət borcu 8 milyarda (ÜDM-in 55 faizi) çatıb. Tədiyyə balansının mənfi saldosu 3 milyard dollar təşkil edir. Xaricdən pul köçürmələri ÜDM-in 25 fazinə yaxındır. Bu iqtisadi göstəricilərə görə, Ermənistan dünyada ən ağır vəziyyədə olan ölkələr siyahısındadır və hazırda yalnız bəzi Afrika ölkələrindən irəlidə olmaqla 153-cü yerdədir.

Ermənistanın cəmi 3 milyardlıq rezervinə qarşı Azərbaycanın strateji valyuta ehtiyatları 50 milyard dollar təşkil edir.

Göründüyü kimi, bütün sahələrdə Azərbaycanın xeyrinə azı beşqat fərq var.

Azərbaycanın apardığı siyasi və iqtisadi fəaliyyət nəticəsində işğalçı ölkə blokada vəziyyətinə düşərək bütün regional və beynəlxalq iqtisadi, ticari, enerji və nəqliyyat layihələrindən kənarda qalıb. Bu proses Ermənistanda sosial-iqtisadi böhranı daha da ağırlaşdırıb.

1 milyondan artıq yoxsul vətəndaş malik Ermənistanın isə nəinki hansısa hərbi əməliyyatı aparmağa, hətta öz əhalisini normal dolandıracaq qədər belə maliyyə imkanı yoxdur.

Beynəlxalq hərbi ekspertlərin fikrincə, xaricdəki erməni diasporunun topladığı sədəqəylə, həmçinin, Amerika və Fransadan edilən maliyyə yardımları ilə dolanan Ermənistan bütün imkanlarını səfərbər etsə belə, hərbi əməliyyatların 1 aydan artıq davam etməsi iqtisadi çökmə, sosial partlayış və hərbi məğlubiyyətlə nəticələnə bilər. Hərçənd, Azərbaycan Silahlı Qüvvələrinin indiki qüdrəti müharibənin 1 aya qədər uzanmamasına kifayət edir.

### Orduların texniki bazası: kim güclü, kim zəif?

Britaniya və Rusiya hərbi araşdırma mərkəzlərinin məlumatlarına əsasən, Azərbaycan ordusu həm canlı qüvvə, həm də hərbi texnika cəhətdən Ermənistan Ordusundan azı 3 dəfə güclü bazaya malikdir. Bəzi konkret sahələrdə üstünlük 4-5 dəfəyə çatır. Müqayisəni verilən cədvəllərdə aydın gördüyünüz üçün burada ətraflı qeyd etməyəcəyik.

Azərbaycan Ordusunun sərəncamında istənilən şəraitdə uğurlu döyüşlər aparmağa imkan verən daha modern hərbi texnika, döyüş aviasiyası və silah-sursat var. Zenit-raket komplekslərinin, artilleriya sistemlərinin, tank və digər zirehli döyüş maşınlarının modernləşdirilməsi isə müvafiq qoşunlar üzrə üstünlüyümüzü dəfələrlə artırıb.

Aviasiya sahəsində Azərbaycan 3 qat üstünlüyə və daha müasir parka sahibdir. Ermənistan Hərbi Hava Qüvvələrinin aviaparkı isə bərbad haldadır. Çoxu köhnə model və istismar müddətini başa vurmuş təyyarə və vertolyotlardır. Belə zəif və köhnə aviaparkla hava döyüşləri aparmaq mümkün deyil. Pilotsuz uçan aparatlar haqda isə danışmağa belə dəyməz. Ermənistanın bir neçə PUA-sına qarşı Azərbaycan ordusunun ixtiyarında bir çoxu silah yüklü olmaqla yüzlərlə ən müasir PUA-lar var ki, bunlar da son günlərdəki döyüşlərdə erməni terroristlərinin mövqelərini, texnikasını havadan dəqiq atəşlərlə darmadağın etməklə öz sözünü dedi.

Ümumiyyətlə, həm hərbi araşdırma mərkəzlərinin hesabatlarından, həm döyüş bölgəsindəki vəziyyətdən aydın görünür ki, bütün texniki sahələrdə Azərbaycan Ordusunun döyüş vasitələri güclü və yüksək effektvlikli texnologiyaya dayanır. Ermənistan ordusunun sərəncamında olan texnikaların əksəriyyəti isə çox köhnə və zəif olmaqla yararsız vəziyyətdədir.

Canlı qüvvə ehtiyatları və peşəkarlıq səviyyəsi

Müharibədə ən əsas amillərdən biri də, canlı qüvvədir. Ermənistanla müqayisədə Azərbaycan ordu heyəti və ehtiyat qüvvələr cəhətdən də Ermənistandakından azı 3 dəfə çoxdur. Hazırda Azərbaycanın 125 minlik ordusuna və 300 minlik ehtiyat qüvvələrinə qarşı, Ermənistan ordusu cəmi 45 min əsgərə və 100 minlik ehtiyat qüvvələrə malikdir. Azərbaycanda total səfərbərliyə cəlb oluna biləcək canlı qüvvənin sayı 4 milyona yaxındır. Ermənistanda isə, bu göstərici 1 milyona da çatmır. Ümumiyyətlə, 10 milyonluq əhaliyə qarşı, faktiki 2 milyon əhali fonunda səfərbərlik imklanlarının müqayisəsindən danışmağa ehtyac belə yoxdur.

İldə iki dəfə orduya çağırış olsa da, Ermənistan mətbuatının yazdıqlarına görə, 2004-cü ildən bu yana ordu ciddi çağırışçı çatışmazlığı problemi ilə üzləşir. Bu səbəbdən, mülki vətəndaşlar belə işğal edilmiş ərazilərdə döyüş mövqelərinə göndərilir. Qarabağdakı mülki şəxslərə silah paylanır və onlar ayda 50 dollara, 15 gün üçün posta çıxırlar.

"Ermənistan Əsgər Anaları Cəmiyyəti"nin açıqladığı hesabatlarda işğal edilmiş Azərbaycan ərazilərindəki hərbi hissələrə imkansızların övladlarının göndərildiyi, imkanlı övladlarının Ermənistandakı hərbi hissələrdə xidmət etdiyi bildirilir. Hərbi hissələrdə "dedovşina", xəstəliklər, intiharlar, narkomanlıq, homoseksualizm baş alıb gedir.

Peşəkar hərbçi kadr baxımından Azərbaycan ordusunun imkanları xeyli yüksəkdir. Son illərdə keçirilmiş iri miqysalı çoxsaylı hərbi təlimlərdə ordumuz xeyli peşəkarlaşıb. İndi əsgərimiz ən müasir hərbi texnika və avadanlıqları idarə etməyi bacarır və son nəsil texnologiyalardan istifadə edə bilir. Hərbçilərimiz bunu döyüşlərin ilk bir neçə günündə əyani surətdə nümayiş etdirdi.

Hərbçilərin peşəkarlığı və döyüş əzmi cəhətdən müqayisə, ümumiyyətlə, yolverilməzdir. Azərbaycan əsgəri öz vətənində döyüşür, ermənilər isə işğal etdikləri torpaqlarda.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*










### Ordularda mənəvi-psixoloji vəziyyət necədir?

Erməni mediasında yayımlanan materiallarda Ermənistan ordusunda əsgər və zabitlərin psixoloji vəziyyətinin getdikcə pisləşdiyi vurğulanır və həyacan siqnalı verilir. Bununla bağlı Ermənistanda fəaliyyət göstərən hərbi yönümlü qeyri-hökumət təşkilatları, o cümlədən "Əsgər Anaları" cəmiyyəti maraqlı faktlar açıqlayıblar.

Bu təşkilatlar tərəfindən hazırlanmış hesabatlara görə, düşmən ordusunda baş verən fərarilik, ölüm, döyülmə, rüşvətalma, intihar və digər hərbi cinayətlərin sayı ötən illə müqayisədə 25 faiz artıb. Terrorçu dövlətin ordusunda ölüm hallarının sayı da yüksələn xətlə artır. Hər il Ermənistan silahlı qüvvələrində 100-dək hərbi qulluqçu həlak olur ki, bunların da təxminən yarısı qeyri-döyüş vəziyyətində ölür.

Ermənistan ordusunda hərbi qulluqçuların sağlamlıq vəziyyəti də ağırdır. Bunun əsas səbəbi isə şəxsi heyətə aşağı kalorili və keyfiyyətli qida məhsulları verilməsi və anti-sanitariya şəraitində xidmət aparmasıdır.

Göstərilənlər erməni ordusunun səfalət və böhran içərisində olmasını təsdiqləyən məqamların yalnız kiçik bir hissəsidir.

Azərbaycan Ordusunda isə mənəvi-psixoloji vəziyyət və döyüş əzmi ən yüksək səviyyədədir. Bu barədə geniş yazmağıza ehtyac yoxdur, hər şeyi özünüz bilirsiniz. Azərbaycan ordusunun arxasında qüdrətli arxa cəbhə dayanır. Ermənistan barədə isə bunu demək mümükn deyil. Belə bir vəziyyətdə müharibənin necə nəticələnəyi dəqiq aydındır.

...Beləliklə, kiçik müqayisəli araşdırmadan ortaya çıxan nəticə budur- Azərbaycan və Ermənistan, əslində, nə hərbi, nə iqtisadi, nə də digər sahələrdə müqayisə ediləcək ölkələr deyil.

Möhkəm dövlətçiliyə, güclü iqtisadiyyata, qüdrətli orduya, əhalisinin yüksək mənəvi-psixoloji vəziyyətə malik olduğu Azərbaycan işğal edilmiş ərazilərini çox qısa zamanda azad etməyə qadirdir. Artıq bu proses başlayıb və tezliklə yekunlaşacaq.

***Elçin Bayramlı***

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

2 oktyabr

Son səhifə


## Ramil Quliyev: “Qarabağ Azərbaycandır”



“Biz azərbaycanlılar 30 ildir ki, torpaqlarımızın geri qaytarılması həsrəti ilə yaşayırıq. İndi isə ən təbii özünümüdafiə haqqımızdan istifadə edərək torpaqlarımızı işğaldan azad etməliyik”.

Bu fikirləri Türkiyə millisinin heyətində dünya və Avropa çempionu olan atlet Ramil Quliyev cəbhə bölgəsində baş verənlərlə bağlı danışarkən deyib. 30 yaşlı idmançı bildirib ki, bu, haqq mübarizəsidir: “Bu yol haqq yoludur. İnanıram ki, yolun sonunda ölkəmiz zəfər qazanacaq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır. Bir bədəndə iki can, yaşasın Türkiyə - Azərbaycan”.

Qeyd edək ki, Ramil Quliyev 200 metr məsafəyə qaçışda 2017-ci ildə dünya, 2018-ci ildə isə Avropa çempionu olub. /report

## “QARABAĞ”dan Avropaya zəfər yürüşü




***“Qarabağ” Avropa Liqasında pley-off mərhələsinin oyununa çıxıb. SİA xəbər verir ki, Ağdam klubu səfərdə Polşa ”Legiya”sı ilə qarşılaşıb. Varşavanın ”Voyska Polskoqo” stadionunda keçirilən görüş ”Qarabağ”ın böyük hesablı qələbəsi ilə başa çatıb. Bu qələbə ilə ”Qarabağ”ımız Avroliqanın qrup mərhələsinə yüksəlib.***

Həmçinin, bu qələbə ilə ”Qarabağ”ımız şanlı AZƏRBAYCAN ORDUSUnun torpaqlarımızın azadlığı uğrunda apardığı zəfər yürüşünə öz töhfəsini də əlavə edib.

Bu xalqa, bu millətə, bu torpağa ancaq qələbə yaraşır.

İrəli ”QARABAĞ”a, irəli AZƏRBAYCAN əsgəri.

Tanrı köməyi ilə QƏLƏBƏlər irəlidədir!

**1 oktyabr**

22.00. ”Legiya” (Polşa) - ”Qarabağ” (Azərbaycan) - 0:3 (İkinci hissə)

**Qollar:** Patrik Andrade, 50, Abdullah Zubir, 62, Filip Ozobiç, 69

**Baş hakim:** Tobias Ştiler (Almaniya)

## Bakıda evdən içərsində külli miqdarda pul olan seyf oğurlandı



Səbail rayonu ərazisindəki evlərin birindən pul olan seyfi oğurlamaqda şübhəli bilinən K.Sübaddin saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Səbail RPİ 9-cu PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 26-da rayon ərazisindəki evlərin birindən 10.000 manat, 10.000 ABŞ dolları və 10.000 avro pul olan seyfi oğurlamaqda şübhəli bili-

## Soyuqdəymə və qripdən necə qorunmalı: ən sadə məsləhətlər



Soyuqdəymə və qripdən qorunmaq üçün sadə məsləhətlər koronavirus infeksiyasının qarşısını almağa kömək edə bilər. AZƏRTAC soyuqdəymə və qripdən qorunmaq üçün aşağıdakı məsləhətləri oxucularının diqqətinə çatdırır. Qidalanmanı nəzarətdə saxlamalı. “Düzgün qidalanma” anlayışını ifrata varmadan dərk etməli. Bitki və heyvan zülallarından, mürəkkəb karbohidratlardan, sellüloz maddələrdən, faydalı yağlardan kifayət qədər istifadə edilməli. Kifayət qədər su içməli.

Qrip və soyuqdəymə xəstəliklərinin törədiciləri çoxsaylı insanların toplaşdığı qapalı məkanlarda daha tez yayılır. Buna görə də insanların sıx toplaşdığı yerlərdən çəkinmək tövsiyə olunur. Bunu etmək mümkün olmadıqda isə mütləq maskalardan istifadə olunmalı və əl ilə üzə toxunulmamalıdır.

Virus hissəcikləri müxtəlif məişət əşyalarının səthlərində yerləşir. Bu səbəbdən əlləri müntəzəm olaraq sabunla yumaq çox əhəmiyyətlidir, gündə bir neçə dəfə - xüsusilə dərhal küçədən evə qayıtdıqdan sonra.

Asqıran zaman ağzınızı mütləq dəsmalla tutmalı. Yaxşı olar ki, salfetə asqırasınız. Bu mümkün olmadıqda isə ağzınızı dirsəyinizlə örtməyiniz məsləhətdir, çünki əks halda patogen hissəciklər əllərinizə düşərək ətrafa yayılacaq. Salfetdən və dəsmaldan istifadə etdikdən sonra əllərinizi mütləq yumalısınız.

Qonaq getməyin. Əgər kiminləsə şəxsən görüşməyiniz vacibdirsə, təmiz havada görüşməyiniz məsləhətdir.

Qapalı məkanları havalandırın. Ətrafınızı təkcə dezinfeksiyaedici salfetlə silmək kifayət deyil, çünki qrip və soyuq viruslar adətən havada qalır. Tez-tez açıq havada olmağa çalışın. Otağı 10-15 dəqiqəlik ikitərəfli qaydada havalandırın.

Sakitliyə riayət olunmalıdır. Psixoloji gərginlik stres hormonunun konsentrasiyasının artmasına imkan yaradır ki, bu da orqanizmin funksiyalarını, o cümlədən immun funksiyasını boğur. Bu, nəticədə xəstələnməyə səbəb ola bilər. D vitamini qəbul edin. D vitamininin çatışmaması immunitetin zəifləməsinə gətirib çıxara bilər ki, bu da mövsümi xəstəliklərə meyilliliyi artırır. Vitamin almağın ən sadə yollarından biri də açıq havada, günəş altında gəzməkdir. Bununla yanaşı, yumurta sarısı, mal qaraciyəri, kərə yağı, süd, yağlı balıq növləri ilə qidalanmaq çox vacibdir.

Alkoqollu içkilərdən, o cümlədən də soyuqdəymə və qripə yoluxmamaqdan ötrü şərabdan imtina edilməlidir. Alkoqollu içkilərə meyillilik immun sisteminin vacib strukturu olan orqanizmin dentroloji hüceyrələrinin vəziyyətinə mənfi təsir göstərir. Alimlər, alkoqollu içkilərə meyilli insanlarda vaksinlərin zəif effekt göstərməsini məhz bu xüsusiyyətlər baxımından izah edirlər.

## Keçmiş məhkum evdən və aptekdən oğurluq etdi



Abşeron rayonu ərazisindəki 1 evdən qızıl-zinət əşyaları və 1 aptekdən pul oğurlamaqda şübhəli bilinən Qazax rayon sakini O.Ağayev saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Abşeron RPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari il yanvarın 11-dən martın 27-dək olan müddətdə rayon ərazisindəki 1 evdən 1910 manat dəyərində qızıl-zinət əşyaları və 1 aptekdən 743 manat pul oğurlamaqda şübhəli bilinən Qazax rayon sakini, əvvəllər məhkum olunmuş O.Ağayev saxlanılıb.

## Diqqət: Dollar bu qiymətə satılacaq

Manatın məzənnəsinə dair Azərbaycan Respublikası Mərkəzi Bankı məlumat açıqlayıb. Mərkəzi Bankdan XəzərXəbər-ə verilən məlumata görə, 02.10.2020-ci il tarixindən etibarən Mərkəzi Bank tərəfindən manatın ABŞ dollarına qarşı rəsmi məzənnəsi 1,7000 səviyyəsində müəyyən olunub.

## Türkiyəli aktrisadan Azərbaycana dəstək: “Azərbaycan, səni sevirəm”



Türkiyəli məşhur aktrisa Aydan Şener sosial şəbəkə hesabında Azərbaycanla bağlı paylaşım edib. SİA-nın məlumatına görə, bayrağımızın fotosunu yayımlayan sənətçi dəstəyini nümayiş etdirib. O, bu sözləri qeyd edib: “Bu dünyanı paylaşa bilmədik... Azərbaycan, səni sevirəm”.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
*“Azərbaycan” nəşriyyatında çap olunur*
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**